

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

20 iyun 2025-ci il, cümə
№ 104 (6931)
Qiymәti 60 qәpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.





Bax səh. 2

# Kahramanmaraşın mərkəzində qardaşlıq möhürü - "Azərbaycan" məhəlləsi

## Yeni inkişaf hədəfləri...

Dinamik inkişaf tempinə malik olan Azərbaycan özünün yaxın və uzaq hədəflərini konseptual əsaslarla müəyyənləşdirir. Bu zaman bir sıra fundamental amillər, o cümlədən ölkənin potensialı, mövcud reallıqları, yeni qlobal çağırışlar nəzərə alınır və uğurlu koordinasiya təmin edilir. Prezident İlham Əliyevin 2025-ci il 30 may tarixində imzaladığı "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması haqqında müvafiq sərəncam bunun növbəti təsdiqidir.

Yeri gəlmişkən, Azərbaycanın 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyasının və ölkənin işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramının hazırlanmasında aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi məqsədilə...

Bax səh. 3

## Dövlət və cəmiyyətin inkişafı naminə siyasi əməkdaşlıq

İyunun 19-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Vəhdət Partiyasının VI Qurultayında yeni seçilmiş sədri Adəm İsmayıl oğlu Bakuvi ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, A.Bakuvini partiya sədri seçilməsi ilə əlaqədar təbrik edən Prezident Administrasiyasının şöbə müdiri ölkəmizdə siyasi müstəvidə sağlam əməkdaşlıq mühitini təşviq edən siyasi dialoqda partiyanın bundan sonra da fəal iştirakına ümid etdiyini bildirib.

Görüş zamanı Prezident İlham Əliyevin təşəbbüsü ilə aparılan çoxsahəli islahatlar...

Bax səh. 4

## Azərbaycan MAMA "Ana təbiət" sərgisi ilə ilk dəfə London Dizayn Biennalesində

London Dizayn Biennalesi-2025 çərçivəsində Azərbaycan pavilyonunun rəsmi açılışı olub. Azərbaycan London Biennalesində ilk dəfə təmsil edilir.

AZƏRTAC xəbər verir ki, milli pavilyon çərçivəsində Heydər Əliyev Mərkəzi və IDEA İctimai Birliyinin təqdim etdiyi MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisində təbiət incəsənətin, yaddaşın və gələcəyin mənbəyi kimi təsvir olunur və insanın təbiətlə dərin bağları müasir incəsənət və ekoloji düşüncə vasitəsilə araşdırılır.

Sərginin açılış mərasimində...

Bax səh. 4

## Tarixi ədalətsizliyə son qoyulmalıdır!

44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazanılan möhtəşəm qələbə nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa edildi. Hazırda bizim qarşımızda duran mühüm məsələlərdən biri zamanında Qərbi Azərbaycandan zorla qovulmuş soydaşlarımızın tarixi yurd yerlərinə ləyaqətli qayıdışına nail olmaqdan ibarətdir. Bu ümummilli ideya yeni mərhələdə qalib Azərbaycanın gündəliyinə Prezident İlham Əliyev tərəfindən gətirilib. Dövlətimizin başçısı bugünlərdə Bakıda "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda keçirilən Ombudsmanların Beynəlxalq Simpoziumunun iştirakçılarına ünvanladığı müraciətində bəhs olunan məsələyə yenidən diqqət çəkib. Qaçqınların hüquqları ilə bağlı...

Bax səh. 4



# Dünyanın taleyini həll etmək üçün 6 dəqiqə...

Bax səh. 7

# Kahramanmaraşın mərkəzində qardaşlıq möhürü - “Azərbaycan” məhəlləsi

## Türkiyənin Kahramanmaraş şəhərində “Azərbaycan” məhəlləsinin açılış mərasimi keçirilib







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Türkiyəyə işgüzar səfərə gəlib. AZƏRTAC xəbər verir ki, Kahramanmaraş Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşılayıb. Daha sonra Prezident İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub.

Türkiyənin Kahramanmaraş şəhərində “Azərbaycan” məhəlləsinin açılış mərasimi keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə iştirak ediblər. İki ölkənin Dövlət himnlərinin səslənməsindən sonra “Azərbaycan” məhəlləsinə həsr edilmiş videoçarx nümayiş etdirilib. Tədbirdə çıxış edən Prezident İlham Əliyev tədbir iştirakçılarını salamlayaraq 2023-cü il fevralın 6-dakı dəhşətli zəlzələ nəticəsində həlak olmuş, həyatını itirmiş bütün bacı-qardaşlarımıza Allahdan bir daha rəhmət diləyib. Dövlət başçısı bildirib ki, Azərbaycan xalqı bu faciəni öz faciəsi kimi qəbul etdi. İlk gündən on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində insani yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq borcunu yerinə yetirməyə başladı: “Zəlzələdən dərhal sonra əziz qardaşımın, hörmətli Cümhurbaşqanının liderliyi ilə axtarış-xilasetmə işləri başlamış, ondan sonra yenidənqurma və inşaat işlərinə start verilmişdir. Qısa müddət ərzində on minlərlə insan yeni mənzillərlə təmin edildi. Bu, bir daha Rəcəb Tayyib Ərdoğanın öz xalqına bağlılığını, sevgisini və güclü iradəsini göstərən amildir. Eyni zamanda, bu, güclü Türkiyənin təzahürüdür. Çünki ancaq güclü dövlət qısa müddətdə bu qədər böyük yenidənqurma və inşaat işləri görə bilər”.

Dövlət başçısı qeyd edib ki, Azərbaycan dərhal mindən çox heyəti, o cümlədən axtarış-xilasetmə üzvlərini, könüllüləri, həkimləri Türkiyənin zəlzələ bölgələrinə göndərib və dərhal işə başlayıb. Azərbaycan heyətləri tərəfindən 53 insan dağıntılar altından sağ çıxarılıb, bizim qurduğumuz iki səhra hospitalında 3200 insana Azərbaycan həkimləri tibbi yardım göstərib. “Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub və bu gün “Azərbaycan” məhəlləsinin açılışında əziz qardaşımla birlikdə iştirakım bir daha bizim birliyimizin, dostluğumuzun təzahürüdür.




Qarabağ məsələsində də qeyd etdiyiniz kimi, biz əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla savaşın ilk günündən çiyin-çiyinə, bir yerdə idik. Savaşın ilk saatlarında Türkiyə Cümhurbaşqanının bizə göstərdiyi dəstək, həmrəylik, siyasi dəstək, mənəvi dəstək, Türkiyə xalqının bizimlə bərabər olması bizim gücümüzə güc qatıb. Biz tarixi ədaləti bərpa etdik və bu gün Azərbaycan xalqı öz əzəli torpağında rahat və təhlükəsizlik şəraitində yaşayır”, - deyən Prezident İlham Əliyev “Azərbaycan” məhəlləsinin yaradılmasını da çox gözəl hadisə adlandırıb. Bildirib ki, burada 90-dan çox bina inşa edilib, 1200 mənzildə bizim türkiyəli bacı-qardaşlarımız yaşayacaq: “Məktəb, uşaq bağçası var, mədəniyyət mərkəzinin inşası da nəzərdə tutulur. Biz yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birimizin yanındayıq, bir-birimizin gücünü artırırıq. Bu gün Türkiyə-Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya miqyasında önəmli amildir, təhlükəsizlik, işbirliyi, inkişaf və qardaşlıq rəmzidir. Dörd il bundan öncə hörmətli Cümhurbaşqanı ilə Şuşa şəhərində imzaladığımız Şuşa Bəyannaməsi bizim əlaqələrimizi ən yüksək zirvəyə qaldırmışdır. Şuşa Bəyannaməsi bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Biz dostuq, qardaşıq, müttəfiqik. Türkiyə və Azərbaycan - iki qardaş ölkə həm siyasi, həm iqtisadi, həm enerji, nəqliyyat, hərbi və bütün başqa sahələrdə bir-birinin yanında inamla, uğurla irəliləyir. Bu gün ilk dəfə olaraq bu gözəl diyarı ziyarət edirəm. Mən Türkiyənin bir çox yerində olmuşam. Gözəl Türkiyənin gözəl təbiətini görmüşəm. Burada da, qədim türk torpağı Kahramanmaraşda olmağımdan da çox məmnunam. Kahramanmaraşlılar dəhşətli zəlzələ ilə üz-üzə qalaraq öz iradələrini göstərdilər, sınmadılar, əyilmədilər. Bilirdilər və inanırdılar ki, onların arxasında güclü lider Rəcəb Tayyib Ərdoğan dayanır. Onların arxasında güclü Türkiyə dayanır. Bu, təbii ki, bir daha kahramanmaraşlıların nə qədər öz doğma xalqına, liderinə, dövlətinə bağlı olmasını göstərir.

Zəlzələ bölgələrində yaşayan bütün insanlara Azərbaycan xalqının hörmətini, sevgisini ifadə edirəm. Siz bilirsiniz və bilməlisiniz ki, Azərbaycanda sizin 10 milyon bacı-qardaşlarınız var. Azərbaycanlılar da bilirlər ki, Türkiyədə 80 milyondan çox bacı-qardaşlarımız var. Yaşasın Türkiyə! Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı!”.

Çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbir iştirakçılarını və açılışı edilən “Azərbaycan” məhəlləsinə töhfə verən Can Azərbaycandakı on milyon bacı-qardaşlarını Prezident İlham Əliyevin şəxsində salamladığını deyib. Prezident bu gün burada “Bir millət, iki dövlət” şüarının həyata keçməsinə bir daha şahidlik edildiyini vurğulayıb: “Çünki biz eyni bayrağın kölgəsində dua edən, eyni səccadədə göz yaşı tökən, eyni istiqlal üçün qurban verən bir millətin, iki dövlətin tək ürək daşıyan övladlarıyıq. “Ayrılarmı könül candan, Türkiyə Azərbaycandan”, - deyən şairlərin sözlərə hərfbəhərf nəqş etdiyi qardaşlığımızın nə məna daşıdığını bu gün bütün dünyaya yenidən göstəririk. Rəbbim aramızdakı bu sarsılmaz həmrəyliyi, bu məhəbbəti daimi etsin. İlham qardaşıma və heyətinə kahramanmaraşlılar adından təşəkkür edirəm. Burada, ilk növbədə, bunu vurğulamaq istəyirəm: Türkiyə ilə Azərbaycan arasındakı tale birliyinin ən konkret nümunələrindən biri açılışını etdiyimiz mənzillərdir. Bilirsiniz, 2023-cü il fevralın 6-da tariximizin ən böyük təbii fəlakətlərindən birini yaşadıq. Keçmişdən bu günə bir çox kədərli xatirələrimiz oldu. Ancaq həmin gün 11 əyalətimizdə gördüyümüz fəlakət və dağıntılar hamısından ayrı idi, 12 min 796-sı Maraşda olmaqla 53 min 735 canımızı torpağa tapşırdıq. Rəbbim bizə belə bir faciəni bir daha yaşatmasın. Fürsətdən istifadə edərək, zəlzələdə həyatını itirən bacı-qardaşlarımıza bir daha Allahdan rəhmət, digər bacı-qardaşlarıma səbir diləyirəm”.

Prezident Ərdoğan deyib ki, bu çətin dövrdə Türkiyənin köməyinə ilk gələnlərdən biri Azərbaycan olub. “Fəlakət xəbərini alar-almaz “Səninləyəm, Türkiyəm!” deyərək qardaş köməyi başladan, avtomobilinin tavanına varını-yoxunu yığaraq millətimizə kömək etməyə çalışan, duaları, dəstəkləri, səmimi göz yaşları ilə kədərimizi bölüşən Azərbaycan xalqının həmrəyliyini heç vaxt unuda bilmərik və unutmayacağıq. Xüsusilə, İlham qardaşımızın və hörmətli həyat yoldaşı Mehriban xanımın yardım səfərbərliyimizə verdiyi böyük töhfənin könlümüzdə daim ayrı bir yeri var. “Azərbaycan” məhəlləmiz bizim ən mötəbər layihələrimizdən biridir, qürur tablomuzdur. Zəlzələ nəticəsində dağılan bu məhəllə indi Azərbaycanın dəstəyi ilə yenidən canlanır. İlham qardaşımın da daim nəzarətdə saxladığı bu layihə burada məskunlaşacaq qardaşlarımıza etibarlı, firavan yuva, görənlərin həsəd aparacağı, özünə heyran qoyacağı bir əsər olacaq, İnşallah. Təkcə evləri ilə deyil, parkları, bağları, mədəniyyət mərkəzi, Heydər Əliyev adına orta məktəbi ilə bura Türkiyə yüzilliyinin qabaqcıl şəhərlərinə yaraşacaq bir yaşayış sahəsi olaraq dirçəldilir”, - deyən Türkiyə Prezidenti bildirib ki, İlham Əliyevin liderliyi ilə yardım edən bu qardaşlıq əli Maraşın qəlbinə qardaşlıq möhürünü vurub.

Rəcəb Tayyib Ərdoğan bildirib ki, istismara verilən mənzil, kənd evi və iş yerinin sayını sentyabrda 100 minə, oktyabrda 130 minə, noyabrda 155 minə, yanvarda 201 minə çatdırdıq. Bu gün bu rəqəmi 250 minə çatdırırıq. İndiyədək zəlzələ bölgəsinə 2 trilyon lirədən çox sərmayə yatırılıb. Türkiyə dövlət başçısı kahramanmaraşlı şair Abdülrahim Karakoçun Xocalı qətliamından dərhal sonra Qarabağa həsr etdiyi duyğu dolu misraları ilə nitqini yekunlaşdırıb: “Rəbbim İlham qardaşımın Ali Baş Komandanlığı ilə tam otuzillik işğalın və zülmün ardından Qarabağın azadlığına qovuşduğunu bizlərə göstərdi. Üç həftə əvvəl 28 May - Müstəqillik Günü münasibətilə Laçında idik. Füzuli və Zəngilandan sonra Laçın Beynəlxalq Hava Limanını da İlham qardaşımla birlikdə istifadəyə verdik. İşğaldan azad edildikdən sonra Qarabağın hər tərəfində inkişaf və bərpa işləri sürətlə davam edir. Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması ilə, inşallah, bu işlər daha da sürətlənəcək. Allah Azərbaycan ilə birliyimizi və diriliyimizi daimi etsin!”.





Prezidentlər “Azərbaycan” məhəlləsində inşa olunacaq mədəniyyət mərkəzinin onlayn formatda təməlini qoyublar. Zəlzələdən zərər görmüş bir sıra ailələrə yeni mənzillərin açarları təqdim olunub. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan “Azərbaycan” məhəlləsinin açılışını bildirən rəmzi lenti kəsiblər. Dövlət başçıları “Azərbaycan” məhəlləsini gəziblər, burada inşa edilmiş mənzillərə baxıblar, Kahramanmaraşdakı “Azərbaycan” məhəlləsində inşa edilmiş Heydər Əliyev adına ibtidai məktəbdə və uşaq bağçasında yaradılan şəraitlə tanış olublar. Qeyd edək ki, 2024-cü il sentyabrın 11-də Heydər Əliyev adına ibtidai məktəbin və uşaq bağçasının açılışları olub. Azərbaycan” məhəlləsinin Baş planı üzrə 7, 8, 11 və 12-ci kvartalların tikintisi artıq tamamlanıb. 4 kvartalda 26 yaşayış binası yerləşir. Binalar hamısı 4 mərtəbəlidir. Bu binalarda ümumilikdə 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri iyunun 19-da başa çatıb. Dövlətimizin başçısını Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan yola salıb.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 143-cü kitabı çapdan çıxıb




"Bizim birgə həyata keçirdiyimiz enerji layihələrimiz nəqliyyat layihələrinin reallaşmasına da imkan verdi. Bu gün Türkiyəni Azərbaycanla birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu çox gözəl üstünlüklər yaradır, həm ölkələrimiz üçün, həm də bütün coğrafiya üçün. Xüsusilə Türk dünyasını birləşdirmək üçün bu nəqliyyat bağlantısının çox böyük mənası, çox böyük faydası var və təbii olaraq, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün Türk dünyasına böyük bir töhfədir. Türk dünyasının birləşməsi yolunda əziz qardaşım, hörmətli Cümhurbaşqanının çox böyük rolu var. Onun liderliyi ilə həm Türkiyədə böyük uğurlar əldə edilib, həm Türk dünyasının daha da sıx birləşməsi üçün yeni imkanlar yaranıb. Azərbaycan da hər zaman Türk dünyasının birləşməsinə çox böyük önəm verir və öz tərəfindən bu birliyi təmin etmək, bunu əbədi etmək, ortaq maraqlar və ortaq tarix üzərində əlaqələri qurmaq üçün səylərini əsirgəmir".

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 143-cü kitabına yer alan bu fikirləri dövlətimizin başçısı bu il martın 5-də Türkiyə Respublikasına işgüzar səfəri çərçivəsində İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində çıxışı zamanı söyləyib.

Çoxcildliyin 143-cü kitabında toplanmış materiallar 2025-ci ilin fevral-aprel aylarını əhatə edir.

Yeni kitaba Azərbaycan Prezidentinin ölkəmizə səfərə gəlmiş Pakistanın Baş naziri ilə görüşünə, Azərbaycan-Pakistan biznes-forumunda iştirakına, Qvineya-Bisau Respublikasının, Şimali Makedoniya Respublikasının, Almaniya Federativ Respublikasının prezidentləri ilə görüşlərinə, Türkiyə Respublikasına işgüzar səfərinə dair materiallar daxil edilib.

Çoxcildliyin bu kitabında Prezident İlham Əliyevin "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və "Yaşıl enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasında çıxışının mətni də yer alıb.

Oxucular bu kitabda dövlətimizin başçısının Ağdam rayonuna, Xankəndi şəhərinə səfərlərinə, Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülmüş işlərlə tanışlığına, kəndə yeni köçmüş sakinlərlə görüşlərinə aid materiallar ilə də tanış ola bilərlər. Həmçinin bu nəşrə Azərbaycan Prezidentinin Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulmadan sonra açılışında, Ağdərə rayonunun Suqovuşan kəndində məscidin açılış mərasimində iştirakı, Ağdərə rayonunun Həsənriz kəndinə köçmüş bir qrup sakinlə görüşü, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanışlığı haqqında informasiyalar daxil edilib.

Bu kitabda Prezident İlham Əliyevin, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Dünya düzəninin yenidən düşünülməsi: çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumunda çıxışının, Forum zamanı "Euronews" televiziyasına müsahibəsinin mətnləri, habelə bu tədbirdə iştirak etmək üçün Azərbaycana gəlmiş yüksəksəviyyəli qonaqlarla görüşləri haqqında informasiyalar toplanıb. 143-cü kitabda Prezidentin Novruz və Ramazan bayramları münasibətilə Azərbaycan xalqına təbriklərinin mətnləri də verilib.

Xatırladaq ki, aprel ayının əvvəlində ölkəmizin həyatında mühüm hadisələrdən biri də ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilmiş beynəlxalq forum olub. Forumda iştirak etmiş Prezident İlham Əliyev ona ünvanlanmış çoxsaylı sualları cavablandırıb. Həmin forum haqqında materialların bir hissəsi bu kitaba daxil edilib və davamı növbəti kitabda yer alacaq.

Çoxcildliyin buraxılışına məsul "Azərnəşr"in baş redaktoru Əlövsət Ağalarovdur.

Bu cildin hazırlanmasında da Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Prezident İlham Əliyev bp şirkətinin baş icraçı direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da bp şirkətinin baş icraçı direktoru Mürrey Aukinklossu qəbul edib. AZƏRTAC xəbər verir ki, söhbət zamanı uzun illərdir Azərbaycanla bp arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulanıb. Ölkəmizdə enerji resurslarından əldə olunan gəlirlərin səmərəli şəkildə Azərbaycanın sosial-iqtisadi inkişafına yönləndirildiyi qeyd edilib. Bir sıra Avropa dövlətlərinin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın roluna toxunulub, ölkəmizdə karbohidrogen enerji resursları ilə bərabər bərpaolunan enerji mənbələrinin də böyük potensialının olduğu vurğulanıb. Bu xüsusda bp şirkətinin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi layihənin əhəmiyyəti qeyd olunub.

Görüşdə SOCAR ilə bp arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Yeni inkişaf hədəfləri...

## Qalib Azərbaycan Böyük Qayıdışın növbəti mərhələlərini reallaşdırır

Dinamik inkişaf tempinə malik olan Azərbaycan özünün yaxın və uzaq hədəflərini konseptual əsaslarla müəyyənləşdirir. Bu zaman bir sıra fundamental amillər, o cümlədən ölkənin potensialı, mövcud reallıqları, yeni qlobal çağırışlar nəzərə alınır və uğurlu koordinasiya təmin edilir. Prezident İlham Əliyevin 2025-ci il 30 may tarixində imzaladığı "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması haqqında müvafiq sərəncam bunun növbəti təsdiqidir.

Yeri gəlmişkən, Azərbaycanın 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyasının və ölkənin işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramının hazırlanmasında aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi məqsədilə müvafiq komissiya yaradılıb. Bununla bağlı Baş nazir Əli Əsədov sərəncam imzalayıb. "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsinin hazırlanması üzrə komissiyaya Baş nazir Əli Əsədov rəhbərlik edəcək. Bundan başqa, komissiyanın tərkibində Strategiyanın və Dövlət Proqramının hazırlanması üzrə işçi qruplar yaradılıb və onların tərkibi təsdiqlənib.

### İqtisadiyyatda hər il daha üstün inkişaf mərhələsi...

2020-ci ildə böyük Qələbəmizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra ölkəmiz inkişafının keyfiyyətcə yeni bir mərhələsinə keçid edib. Prezident İlham Əiyevin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində yeni strateji mərhələnin çağırışları nəzərə alınıb. 2030-cu ilədək olan dövrü əhatə edən indiki strateji mərhələdə respublikamız qüdrətli dövlət və yüksək rifah cəmiyyəti quruculuğunu hədəfləyib.

Hazırda respublikamızda 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyası uğurla icra olunur və bunun da nəticəsində ölkənin sosial, iqtisadi və institusional inkişafı üçün mühüm zəmin yaranıb. Ayrı-ayrı illər üzrə əldə olunan nəticələr əvvəlki strategiyada ifadə olunan proqnozların tam şəkildə doğruldulduğunu əyani şəkildə təsdiqləyir. Respublikamızda artıq ənənə halını alıb - hər il iqtisadiyyat daha üstün inkişaf mərhələsinə keçid edir. 2024-cü ildə Azərbaycanda ümumi daxili məhsul real ifadədə 4,1 faiz artaraq, 121,3 milyard manat proqnoza qarşı 126,3 milyard manat təşkil edib. Ötən ildə adambaşına düşən ÜDM 3,6 faiz artaraq 12,4 min manat olub. Qeyri-neft-qaz sektorunda 6,2 faizlik real artım qeydə alınıb. Fiskal və monetar siyasətlərin sıx əlaqələndirilməsi milli valyutanın mübadilə məzənnəsinin sabitliyini təmin edib. Ölkə əhalisinin gəlirləri əvvəlki ilə nisbətən nominal ifadədə 6,4 faiz artaraq 83,1 milyard manat təşkil edib, hər nəfərə düşən gəlir orta hesabla 8144,1 manata çatıb. Cari ilin əvvəlinə ölkənin valyuta ehtiyatları 71 milyard ABŞ dolları təşkil edib. Ötən il çoxsaylı infrastruktur layihələri, ölkənin sosial-iqtisadi inkişaf strategiyasından irəli gələn tapşırıqlar yüksək səviyyədə icra olunub, habelə sosial islahatlar davam etdirilib, bununla yanaşı fiskal çərçivə də qorunub.



### Azərbaycan yeni çağırışlara hazır olmalıdır

Belə möhkəm bazaya istinad edilməklə gələcək üçün daha mühüm hədəflərin müəyyənləşdirilməsi, necə deyərlər, inkişaf çərçivəsinin genişləndirilməsi artıq bir zərurət kimi çıxış edir. Azərbaycan qarşıdakı illərdə daha mürəkkəb çağırışların və zəngin imkanların mövcudluğu ilə seçilən yeni mərhələyə daxil olur. Bu mərhələ qlobal iqtisadi qütbləşmənin dərinləşməsi, texnoloji tərəqqinin sürətlənməsi, eləcə də süni intellekt əsaslı texnologiyaların geniş tətbiqi ilə səciyyələnir. Yeni strategiyanın hazırlanması ölkəmizin ötən illərdə əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin davamlı şəkildə artırılması, bunun üçün özəl, o cümlədən birbaşa xarici investisiyaların cəlbinin genişləndirilməsi, biznes mühitinin əlverişliliyinin yüksəldilməsi, iqtisadiyyatın bilik və texnologiya tutumunun gücləndirilməsi kimi mühüm məqsədləri hədəfləyir. Azərbaycan yeni çağırışlara hazır olmalıdır!

### Daha güclü əzmlə Böyük Qayıdış hədəfinə doğru

İkinci Qarabağ müharibəsi başa çatandan sonra ermənilər iddia edirdilər ki, Azərbaycanın işğaldan azad olunmuş əraziləri bərpa etməyə gücü çatmayacaq və yaxud bunun üçün uzun zaman lazım gələcək. Qalib Azərbaycan isə belə iddiaları altüst edərək işğaldan azad olunmuş ərazilərin bərpasına vaxt itirmədən başladı. Yeni strateji mərhələdə "Böyük Qayıdış" ölkəmizin beş mühüm prioritetindən biri kimi müəyyənləşdirilib. Azərbaycan dövləti Qarabağı cənnətə çevirmək və otuz il ərzində ağır qaçqınlıq və məcburi köçkünlük taleyi yaşamış soydaşlarımızın yurd yerlərinə qayıdışını layiqli şəkildə təmin etmək əzmindədir. Qeyd edək ki, azad ərazilərin quruculuq salnaməsinin ilk konsepsiyası olan "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı nəzərdə tutulan tədbirlər plan üzrə tam şəkildə icra olunmaqdadır. Ötən dövr ərzində azad edilmiş ərazilərdə, şəhər və kəndlərin yenidən qurulması və bərpası, müasir infrastrukturların yaradılması, elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların yenidən qurulması, yaşayış evlərinin tikintisi, həmçinin iqtisadi fəaliyyət sahələri üzrə çoxsaylı layihələr yüksək səviyyədə yerinə yetirilib.



Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına sərmayə qoyuluşları ölkə üzrə investisiya portfelində xüsusi üstün yer tutub. Ən böyük yatırımlarda paytaxt Bakı şəhəri ilk yerdə dayansa da, azad edilmiş ərazilərdəki rayonlar sonrakı yerləri tutub. Bu rayonlarda 2021-2024-cü illərdə kapital qoyuluşlarının həcmi təxminən 20 milyard manata yaxın olub.



### 140 min insanın köçürülməsi planlaşdırılır...

Göründüyü kimi, işğaldan azad edilmiş ərazilərdə şəhərlərin və kəndlərin bərpası sürətlə davam etdirilir. Nəhəng vəsait və qüvvə tələb edən bu işləri Azərbaycan öz imkanları hesabına həyata keçirir. "Böyük Qayıdış"a dair I Dövlət Proqramı çərçivəsində Qarabağa və Şərqi Zəngəzura 140 min insanın köçürülməsi planlaşdırılır.

İkinci Dövlət Proqramı isə Böyük Qayıdışın daha geniş miqyas almasını, insanların öz doğma yurdlarına geridönüşünün, məşğulluğunun, sosial rifahının yeni mərhələyə daxil olmasını təmin edəcək. Yeni proqram çərçivəsində ərazilərin bərpası və iqtisadi fəaliyyətə reinteqrasiyası, əhalinin öz yurdlarına qayıdışı, Qarabağ və Şərqi Zəngəzurun böyük inkişaf məkanına çevrilməsi daha geniş miqyasda öz həllini tapacaq.

**MÜBARİZ**

# Dövlət və cəmiyyətin inkişafı naminə siyasi əməkdaşlıq



İyunun 19-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Vəhdət Partiyasının VI Qurultayında yeni seçilmiş sədri Adəm İsmayıl oğlu Bakuvi ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, A.Bakuvini partiya sədri seçilməsi ilə əlaqədar təbrik edən Prezident Administrasiyasının şöbə müdiri ölkəmizdə siyasi müstəvidə sağlam əməkdaşlıq mühitini təşviq edən siyasi dialoqda partiyanın bundan sonra da fəal iştirakına ümid etdiyini bildirib.

Görüş zamanı Prezident İlham Əliyevin təşəbbüsü ilə aparılan çoxsahəli islahatlar, əldə olunmuş tarixi Qələbə, uğurla icra olunan Böyük Qayıdış proqramı, sağlam iqtidar-müxalifət münasibətlərinin dəstəklənməsinin vacibliyi, konstruktiv əməkdaşlıq əlaqələrinin inkişafı, Azərbaycana qarşı aparılan informasiya müharibəsində siyasi partiyaların fəal mövqe sərgiləməsinin əhəmiyyəti və digər bu kimi məsələlər barədə danışan Administrasiya rəsmisi dünyada müşahidə olunan münaqişələr və mürəkkəb proseslər fonunda milli həmrəyliyin qorunmasının müstəsna əhəmiyyətini xüsusi vurğulayıb.

Eyni zamanda, görüş çərçivəsində cəmiyyəti düşündürən məsələlərlə bağlı siyasi partiyalarla açıq müzakirələrin aparılması məqsədilə təşkil olunan müxtəlif tədbirlər haqqında fikir mübadiləsi aparılıb və bundan sonra da mövcud təcrübənin inkişaf etdiriləcəyi bildirilib.

Son dövrdə görülən məqsədyönlü işlər nəticəsində siyasi partiyaların ölkənin siyasi-ictimai həyatında artan rolunu qeyd edən A.Bakuvi sədrlik etdiyi partiya üçün milli maraqların və dövlətçilik mövqeyinin qorunmasının hər zaman prioritet təşkil edəcəyini vurğulayıb.

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması məsələsinin partiyanın fəaliyyətinin əsas istiqamətlərindən biri olacağını vurğulayan partiya sədri dialoq mühitinin dəstəklənmək məqsədilə ölkədə fəaliyyət göstərən sağlam niyyətli siyasi partiyalar ilə açıq əməkdaşlıq əlaqələrinin inkişafı məsələsinin də partiyanın gündəlik vəzifələrindən biri olacağını bildirib.

# Azərbaycan MAMA "Ana təbiət" sərgisi ilə ilk dəfə London Dizayn Biennalesində










London Dizayn Biennalesi-2025 çərçivəsində Azərbaycan pavilyonunun rəsmi açılışı olub. Azərbaycan London Biennalesində ilk dəfə təmsil edilir.

AZƏRTAC xəbər verir ki, milli pavilyon çərçivəsində Heydər Əliyev Mərkəzi və IDEA İctimai Birliyinin təqdim etdiyi MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisində təbiət incəsənətin, yaddaşın və gələcəyin mənbəyi kimi təsvir olunur və insanın təbiətlə dərin bağları müasir incəsənət və ekoloji düşüncə vasitəsilə araşdırılır.

Sərginin açılış mərasimində çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva planetimizdə iqlim dəyişikliyi nəticəsində yaranan mövcud problemlərə diqqət çəkərək təbiətlə yenidən əlaqə qurulmasının vacibliyini, qayğının, yaradıcı düşüncənin rolunu vurğulayıb. "Təbiət bizim evimizdir. Qlobal dəyişikliklər fonunda biz yalnız məsuliyyət deyil, eyni zamanda incəsənət, gözəllik, qadın duyumu vasitəsilə təbiətin ritmlərini, səsini yenidən eşitmək imkanı əldə edirik", - deyən Leyla Əliyeva bildirib ki, "Ana təbiət" beynəlxalq incəsənət layihəsi Bakıda Heydər Əliyev Mərkəzindəki debütü, Bəhreyn İncəsənət Mərkəzi və Romadakı MAXXI incəsənət muzeyindəki uğurlu təqdimatından sonra səyahətini davam etdirir. Londondakı sərgi bu yolun mühüm mərhələsinə çevrilib və Azərbaycan bir daha sübut edir ki, mədəniyyət, ekologiya və humanist dəyərlərin qovşağında qlobal dialoq aparmaq gücünə malikdir.

London Dizayn Biennalesi-2025-in direktoru Viktoriya Broaks çıxışı zamanı pavilyonun şeiriyyətini diqqətə çəkib və ekoloji çağırışa verdiyi bədii cavabı yüksək qiymətləndirib.

Böyük Britaniyanın Azərbaycan və Mərkəzi Asiya üzrə ticarət elçisi, Britaniya parlamentinin Lordlar palatasının üzvü lord Con Alderdays mədəni mübadilənin və ekoloji dialoqun davamlı gələcək üçün əhəmiyyətini vurğulayıb.

London Dizayn Biennalesi tarixi "Somerset House" binasında iki ildən bir keçirilən beynəlxalq sərgidir. Biennale müxtəlif ölkələrdən rəssam, dizayner, memarları bir araya gətirir. London Dizayn Biennalesi bu il "Səthin əks olunması" (Surface Reflections) mövzusunu əhatə edir.

Azərbaycan pavilyonu iyunun 29-dək ziyarətçilər üçün açıq olacaq.

# Tarixi ədalətsizliyə son qoyulmalıdır!

44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazanılan möhtəşəm qələbə nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa edildi. Hazırda bizim qarşımızda duran mühüm məsələlərdən biri zamanında Qərbi Azərbaycandan zorla qovulmuş soydaşlarımızın tarixi yurd yerlərinə ləyaqətli qayıdışına nail olmaqdan ibarətdir. Bu ümummilli ideya yeni mərhələdə qalib Azərbaycanın gündəliyinə Prezident İlham Əliyev tərəfindən gətirilib. Dövlətimizin başçısı bugünlərdə Bakıda "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda keçirilən Ombudsmanların Beynəlxalq Simpoziumunun iştirakçılarına ünvanladığı müraciətində bəhs olunan məsələyə yenidən diqqət çəkib. Qaçqınların hüquqları ilə bağlı müzakirələrin önəminə toxunan Prezident İlham Əliyev "Bu sahədə diqqət yetirilməli olan məsələ keçən əsrin əvvəllərindən başlayaraq Qərbi Azərbaycandan - Ermənistan ərazisindən yüz minlərlə azərbaycanlının zorla çıxarılması və etnik təmizləməyə məruz qalmasıdır", - deyə bildirib.



**Xalqımıza qarşı dəhşətli deportasiyalar**

Prezident İlham Əliyev müraciətində azərbaycanlıların Ermənistan ərazisindən zorla çıxarılmasını "dəhşətli deportasiyalar" kimi səciyyələndirib. Soydaşlarımızın tarixi yurd yerlərindən qovulması bir neçə mərhələdə reallaşdırılıb. Bu baxımdan XX yüzillik xüsusilə faciəvi olub. Belə ki, bir əsrdə 4 dəfə - 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xalqımıza qarşı mərhələli şəkildə deportasiya və soyqırımları həyata keçirilib. Bu deportasiyalar və soyqırımları bizim tariximizin bir hissəsidir və gələcəkdə də belə faciələrlə üzləşməmək üçün tariximizi yaxşı öyrənməliyik. Beləliklə, bəzi ştrixlərə diqqət çəkmək yerinə düşər. Xatırlayaq: 1918-ci ildə yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti (AXC) özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq hədiyyə edib. Prezident İlham Əliyev bunu çox doğru olaraq bağışlanmaz bir addım, xəyanət və cinayət kimi səciyyələndirib.

Zamanında bir çoxları düşünürdülər ki, ermənilər İrəvana sahibləndikdən və tarixi Azərbaycan ərazisində öz dövlətlərini qurduqdan sonra daha dayanacaqlar, bir daha ərazi iddialarından çıxış etməyəcəklər. Ancaq unutmamalıyıq ki, söhbət ermənilərdən - bütün düşüncələri və ruhları ilə "dənizdən-dənizə Ermənistan" mifinə uyan bir toplumdan gedir. Əlavə edək ki, bu toplumun iliyinə həm də "türkə nifrət" ideologiyası yeridilib, hər bir erməni körpəsinin ana laylası məhz bunu təlqin edir.

Beləliklə, ermənilər İrəvana sahiblənməklə kifayətlənmədilər. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız olan Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun



da səbəbləri və məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə yerləşmişdilər və siyasi qərarlar verilməsinə təsir göstərmək imkanlarına malik idilər. Zəngəzurun Ermənistana verilməsi Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq, bununla da eyni zamanda, Türk dünyasını parçalamaq üçün atılmış bir addım idi.

İrəvanın və Zəngəzurun Ermənistana verilməsi ilə Qərbi azərbaycanlıların faciələri bitmədi - 1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qaldı. Bu, keçmiş sovet hökumətinin Qərbi azərbaycanlılara və bütövlükdə Azərbaycan xalqına qarşı törətdiyi növbəti cinayəti idi.

**Etnik təmizləmənin sonuncu mərhələsi**

1970-1980-ci illərdə Ulu Öndər Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövründə məkrli proseslərin qarşısı alındı, xalqımız Ermənistan ərazisində növbəti deportasiya və etnik təmizləməyə məruz qalmadı. Lakin 1987-ci ildə Heydər Əliyevin keçmiş ittifaq rəhbərliyindən uzaqlaşması ilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın növbəti qara günləri başladı. Belə ki, 1988-1991-ci illərdə azərbaycanlıların Ermənistandan deportasiyasının sonuncu mərhələsi həyata keçirildi. Ağır işgəncələrlə, çoxlu sayda insanın məqsədli şəkildə qətlə yetirilməsi ilə müşayiət olunan sonuncu etnik təmizləmə tariximizə ən amansız deportasiya kimi düşdü. Xatırladaq ki, həmin dövrdə Ermənistanda 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdı, 90-a yaxın kənddə, eləcə də böyük şəhərlərdə azərbaycanlılar əksəriyyət təşkil edirdilər. Həmin kəndlərdə və şəhərlərdə yaşayan soydaşlarımız 3 il ərzində Ermənistandan zorla çıxarılıb, soyqırımı və işgəncələrə məruz qaldılar. Verilən məlumatlara əsasən, azərbaycanlıların Ermənistan ərazisində yerləşən ata-baba yurdlarından sonuncu deportasiyası zamanı 300-ə yaxın yaşayış məntəqəsindən 50 mindən artıq ailədən təxminən 300 min soydaşımız zorla qovulublar, 200-dən artıq soydaşımız vəhşicəsinə qətlə yetirilib, 400 nəfərdən artıq insan yaralanıb, bir çoxlarının evləri, əmlakları yandırılıb, yandırılmayanlar isə ermənilər tərəfindən əvəzi ödənilmədən qəsb edilib, 300-dən artıq məscid, ocaq, ziyarətgah, 500-dən artıq qəbiristanlıq yer üzündən silinib.

İndiki Ermənistan ərazisində soydaşlarımızın sonuncu deportasiyası 1991-ci ilin avqustunda azərbaycanlıların Nüvədi kəndindən qovulması ilə yekunlaşdı. Həmçinin XX yüzilliyin sonlarına yaxın Qarabağın və Şərqi Zəngəzurun işğalı xalqımızın növbəti faciəsi idi.

**Bölgədə sülhün təmin olunması üçün vacib şərt - tarixi ədalət bərpa edilməlidir**

Qərbi Azərbaycana qayıdış özündə bir neçə mühüm məqamı ehtiva edir. Burada söhbət həm beynəlxalq hüququn, həm tarixi ədalətin bərpasından, həm də insan haqlarının təmin edilməsindən gedir. Qərbi Azərbaycan icması böyük bir toplumdur. Bu icma doğma yurd yerlərini zorla tərk etmək məcburiyyətində qalan yüz minlərlə soydaşımızı və onların qanuni varislərini əhatə edir. Bu icmanın adı zamanında soydaşlarımızın yaşadıqları tarixi ərazilərimizin adından götürülüb.

Müxtəlif dövrlərdə çap edilmiş xəritələr və digər sənədlər Ermənistan yaradılarkən böyük saxtakarlıqlara yol verildiyini təsdiqləyir. Bəhs olunan xəritələrdə onlarla yaşayış məntəqəsinin adları qeyd olunub. Toponimlərin əksəriyyəti Azərbaycan mənşəlidir. Təəssüf ki, sonradan yeni bir saxtakarlıq edilərək tarixi toponimlərimiz eybəcər adlarla əvəzlənib. Erməni saxtakarlıqları yalnız toponimlərin dəyişdirilməsi ilə bitmir. Burada ermənilər özlərinə xas olan tərzdə yerin altına xaçlar basdırıblar. Sonradan təlimatlar əsasında yaradılan ekspedisiyalar "arxeoloji" qazıntılar aparıblar və necə deyərlər, evrika kəşf ediblər. Belə ki, onlar bəlli yerlərdə qazıntılar aparmaqla torpağa basdırılmış xaçları "tapıblar" və bununla da həmin ərazilərin ermənilərə aid olduğunu "sübut ediblər"...

Ermənilər tarixdə əl atdıqları saxtakarlıqları bu gün başqa bir formada və məzmunda davam etdirməyə çalışırlar. "Azərbaycanla sülh sazişi imzalamağa hazırıq" deyən Nikol Paşinyan iqtidarı soydaşlarımızın tarixi ərazilərimizə qayıtmaq istəklərini beynəlxalq ictimaiyyətə Azərbaycanın Ermənistana qarşı ərazi iddiaları kontekstində təqdim etməyə çalışır. Bu, Ermənistan rəhbərliyinin növbəti manipulyasiyasıdır. Qalib Azərbaycanın heç bir qonşu dövlətə qarşı hər hansı bir ərazi iddiası yoxdur. Soydaşlarımızın yurd yerlərinə qayıtmaq istəyi isə insan haqları məsələsidir və bilavasitə beynəlxalq hüquqdan irəli gəlir. Ermənistan rəhbərliyi beynəlxalq hüquqa və tarixə hörmətlə yanaşaraq azərbaycanlıların ləyaqətli şəkildə qayıdışını təmin etməsi üçün öhdəliklər götürməlidir. "Tarixi ədalət bu insanların öz vətənlərinə dinc və təhlükəsiz qayıdışının təmin olunmasını tələb edir. Ermənistan azərbaycanlıları öz dədə-baba yurdlarına qayıtmaq hüququna hörmətlə yanaşmalıdır. Bu, bölgədə sülhün, barışığın və insan hüquqlarının bərqərar olması üçün vacib şərtdir", - deyə dövlətimizin başçısı vurğulayıb.

*Mübariz FEYİZLİ*

# 3-cü iclas...

## TDT-yə üzv ölkələrin Məhkəmə Şuraları Şəbəkəsinin Əsasnaməsi imzalanıb




İyunun 19-da Bakıda Türk Dövlətləri Təşkilatı (TDT) Məhkəmə Şuraları sədrlərinin 3-cü iclası təşkil olunub. İclasda Azərbaycan Məhkəmə-Hüquq Şurasının və Ali Məhkəməsinin sədri İnam Kərimov, TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev, Qırğızıstan Hakimlər Şurasının sədri Aida Seidakmatova, Türkiyə Hakimlər və Prokurorlar Şurasının sədri vəzifəsini icra edən Fuzuli Aydoğdu, Özbəkistan Ali Məhkəmə Şurasının sədri Kholmumin Yodgorov, Qazaxıstan Ali Məhkəmə Şurasının üzvü Yernar Begaliyev, Şimali Kipr Türk Cümhuriyyətinin Ali Məhkəmə Şurasının və Ali Məhkəməsinin sədri Bertan Özerdağ iştirak ediblər.

Azərbaycan Məhkəmə-Hüquq Şurasının və Ali Məhkəməsinin sədri İnam Kərimov çıxış edərək iclas çərçivəsində imzalanması nəzərdə tutulan TDT-yə üzv ölkələrin Məhkəmə Şuraları Şəbəkəsinin Əsasnaməsi barədə məlumat verib: “Bu təşəbbüs ilk dəfə 2024-cü ilin may ayında İstanbulda keçirilən görüşdə irəli sürülüb və yüksək qiymətləndirilib. Bu gün həmin təşəbbüs konkret hüquqi əməkdaşlığımızın institutlaşması istiqamətində önəmli bir addımdır. Hesab edirəm ki, Əsasnamənin imzalanması ilə tərəfdaş dövlətlər arasında məhkəmə-hüquq sahəsində çoxtərəfli və davamlı əməkdaşlığın hüquqi əsası yaradılacaq”.

İnam Kərimov vurğulayıb ki, bu çərçivədə birgə layihələrin icrası, elmi-tədris proqramlarının təşkili, hakimlərin etik və peşəkar hazırlığı, ortaq hüquqi tədqiqatların aparılması və davamlı təcrübə mübadiləsi üçün etibarlı bir platforma formalaşdırılacaq: “Bu proses türk dövlətlərinin ortaq hüquq mədəniyyətinin daha da dərinləşməsinə, ədalət və qanunun aliliyi prinsiplərinin geniş təbliğinə mühüm töhfə verəcək. Eyni zamanda, tədbir çərçivəsində nəzərdə tutulan mədəni proqramlar da hüquqi dialoqun mədəni zəmin üzərində qurulması baxımından əlamətdar olacaq. Ümidvaram ki, Bakı görüşü türk dövlətləri arasında hüquqi həmrəyliyin gücləndirilməsi, məhkəmə-hüquq sistemlərinin yaxınlaşdırılması və ortaq gələcəyimizin möhkəmləndirilməsi istiqamətində mühüm bir mərhələ kimi tarixə düşəcək”.

TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev qeyd edib ki, hazırda təşkilatla müşahidəçi dövlətlər arasında 35-dən çox sahə üzrə səmərəli əməkdaşlıq var: “Bu sahələrdən biri hüquq-mühafizə və məhkəmə sistemidir. Qeyd edim ki, ötən ay təşkilatımızın Budapeştdə keçirilən qeyri-rəsmi görüşü zamanı dövlətlərimizin başçıları üzv ölkələri regionda və onların hüdudlarından kənarda sülh və təhlükəsizliyə qarşı çağırışlarla mübarizədə birgə səyləri davam etməyə çağırdılar. Bu məsələlər hüquqi əməkdaşlıq gündəmində əsas yer tutur. Təşkilatımız yaranandan indiyədək məhkəmə hakimiyyəti ilə bağlı davamlı uğurlar əldə olunub. Qeyd edim ki, TDT Ədliyyə Nazirləri Şurasının 2-ci iclasının bu il Azərbaycanda təşkil olunması planlaşdırılır”.

Qırğız Respublikasının Hakimlər Şurasının sədri Aida Seidakmatova isə bildirib ki, birgə tarix və dil xalqlarımızı birləşdirir: “Düşünürəm ki, hüquqi bazaya da nail olmaq lazımdır. TDT-yə üzv ölkələrin Məhkəmə Şuraları Şəbəkəsinin Əsasnaməsi əməkdaşlıq üçün yeni üfüqlər açır, hüquqi təcrübələrin mübadiləsi üçün imkanlar yaradır”.

Türkiyə Hakimlər və Prokurorlar Şurasının sədri vəzifəsini icra edən Fuzuli Aydoğdu qeyd edib ki, 2023-cü ilin noyabr ayında Azərbaycan və Özbəkistana edilən səfərlər məhkəmə sahəsində əməkdaşlıq prosesini yenidən canlandırmaq baxımından əhəmiyyətli mərhələ olub. Onun sözlərinə görə, TDT-nin Məhkəmə Şuraları Şəbəkəsinin yaradılması yalnız bir sənədin imzalanması deyil, həm də ortaq hüquqi baxışın, qardaşlıq üzərində qurulmuş əməkdaşlığın və uzunmüddətli ədalət anlayışının təsdiqidir.




Özbəkistan Ali Məhkəmə Şurasının sədri Kholmumin Yodgorov çıxışında qeyd edib ki, TDT çərçivəsində dialoq və əməkdaşlığın inkişaf etdirilməsi baxımından mühüm addımlar atılıb. Onun sözlərinə görə, rəqəmsallaşma dövründə TDT çərçivəsində əməkdaşlıq hüquq və ədliyyə sahəsində yeni mərhələyə qədəm qoyur: “Bu çərçivədə “Türk Rəqəmsal Təşəbbüsü” adı altında bu il Türkiyədə ilk dövlətlərarası konqres keçiriləcək. Bu təşəbbüs elektron hüquq sahəsində bilik mübadiləsini artıracaq, iştirakçı ölkələrin təcrübələrinin onlayn formada paylaşılmasına imkan yaradacaq. Bu isə şübhəsiz ki, çox mühüm addımdır”.

Qazaxıstan Ali Məhkəmə Şurasının üzvü Yernar Begaliyev iclasda çıxış edərək bildirib ki, ölkəsində məhkəmə sahəsinə xüsusi diqqət yönəldilib. O qeyd edib ki, TDT arasında effektiv əməkdaşlığın mövcud olması çox yaxşı haldır: “Bu gün imzalanacaq Əsasnamə üzv dövlətlər arasında yeni əməkdaşlığın yaranmasına, eyni zamanda, məhkəmə sisteminin təşəkkül tapmasına təkan verəcək”.

Şimali Kipr Türk Cümhuriyyətinin Ali Məhkəmə Şurasının və Ali Məhkəməsinin sədri Bertan Özerdağ isə çıxışında deyib ki, TDT-nin son illər ərzində keçirilən iclasları ortaq keçmişə sahib olan dövlətlərin bir-birini daha yaxşı tanıması və əməkdaşlıqlara töhfə vermək baxımından mühüm əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, Şimali Kipr Türk Cümhuriyyəti belə tədbirlərə böyük əhəmiyyət verir.

İclasın sonunda TDT-yə üzv ölkələrin Məhkəmə Şuraları Şəbəkəsinin Əsasnaməsi imzalanıb.

*Nardar BAYRAMLI*

# İtkin düşən azərbaycanlıların taleyi...

## Ermənistan törətdiyi cinayətlərə görə cavab verməlidir

Ermənistan torpaqlarımızın işğalı dövründə xalqımıza qarşı çoxsaylı cinayətlər törədib. Azərbaycana qarşı hərbi təcavüz zamanı dinc insanlar kütləvi qətlə yetirilib, girov götürülüb, eləcə də yaşayış məntəqələri tamamilə dağıdılıb. Eyni zamanda, müharibə dövründə itkin düşmüş minlərlə azərbaycanlının taleyi bugünədək məlum deyil.



Xatırladaq ki, Birinci Qarabağ müharibəsində 3890 vətəndaşımız Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasında itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. 44 günlük Vətən müharibəsində isə 6 vətəndaşımız itkin düşüb. Torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərdə kütləvi məzarlıqlar aşkar olunub. Həmin məzarlıqlarda basdırılmış insanlar Birinci Qarabağ müharibəsində itkin düşənlərdir. Onların bəzilərinin kimliyi müəyyənləşdirilərək ailələrinə təhvil verilib və dəfn olunublar.



**Xalqımıza qarşı cinayətlər cəzasız qalmır**

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə bu istiqamətdə davamlı olaraq işlər aparılır. Görülən işlərin nəticəsi olaraq itkin düşmüş daha bir şəhidimizin şəxsiyyəti müəyyənləşdirilib. Bu, hərbçi Fuad Cəfər oğlu Ələsgərovdur. Birinci Qarabağ müharibəsində itkin düşdüyü hesab edilən və şəxsiyyəti müəyyənləşdirilən Fuad Cəfərov iyunun 20-də Tovuz rayonu, Ağbaşlar kənd qəbiristanlığında dəfn edilib.

İnsanlığa qarşı törədilən bu cinayətlər cəzasız qalmamalıdır və qalmır. 44 günlük Vətən müharibəsində xalqımıza qarşı cinayətlər törətmiş ermənilərin bir qismi öz cəzalarını aldılar. Eləcə də 2023-cü ilin sentyabr ayında Qarabağda keçirilmiş antiterror tədbirləri zamanı separatçılar diz çökdürüldü, onların başçıları həbs olunaraq Bakıya gətirildilər. Hazırda onların məhkəməsi davam edir və bu canilər törətdikləri cinayətlərə görə cavab verəcəklər.

Lakin minlərlə azərbaycanlının taleyi haqqında hələ də məlumat yoxdur. Ermənistan tərəfi bu məlumatları verməlidir. Ermənistana öz öhdəliklərini yerinə yetirmək üçün beynəlxalq səviyyədə təzyiq göstərilməlidir. Çünki itkin düşmüş azərbaycanlıların taleyi haqqında məlumat vermək rəsmi İrəvanın üzərinə götürdüyü öhdəliklər sırasındadır. Bununla belə, itkin düşmüş həmvətənlərimizin taleyi ilə bağlı dövlətimiz bütün imkanlardan istifadə edir.

**İtkin düşən insanların taleyi beynəlxalq gündəlikdə...**

2023-cü ildən etibarən ölkəmizdə bu məsələ ilə bağlı məlumatlılığın artırılması üçün beynəlxalq konfranslar təşkil edilir. 2024-cü il oktyabrın 2-3-də Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən “İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun dəstəklənməsi” mövzusunda beynəlxalq konfransın Bəyannaməsi rəsmi şəkildə BMT Baş Assambleyası və BMT Təhlükəsizlik Şurasının sənədləri kimi yayılıb.

Digər tərəfdən, son illər itkin düşmüş şəxslərin axtarışı və onların kimliyinin müəyyən olunmasının səmərəliliyini əhəmiyyətli dərəcədə artıran texnoloji vasitələrdən istifadə olunur. Bu sahədə irəliləyişlərə baxmayaraq, statistik məlumatlar dünyada itkin düşənlərin sayının kəskin şəkildə artdığını və sayın 212 mindən çox olduğunu göstərir. Bu faktların fonunda BMT Baş Assambleyasının “İtkin düşmüş şəxslər” adlı qətnaməsi beynəlxalq gündəlikdə öz aktuallığını saxlayır. Ona görə də, Azərbaycan itkin düşmüş şəxslərlə bağlı problemlərin həllini tapması istiqamətində beynəlxalq səylərin səfərbər edilməsini bundan sonra da davam etdirəcək.

*Nardar BAYRAMLI*

# “Qərbi Azərbaycan - Yurd yerimiz” mövzusunda konfrans keçirilib



Şabranda “Qərbi Azərbaycan - Yurd yerimiz” mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir Qərbi Azərbaycan İcması (QAİ) və Şabran Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik ili” çərçivəsində baş tutub.



Konfransda Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Şabran Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov, Milli Məclisin deputatları, eləcə də rayonun idarə, müəssisə və təşkilat rəhbərləri iştirak ediblər.



Tədbirdə əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, daha sonra Ulu Öndər Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Qərbi Azərbaycanla bağlı videoçarx nümayiş etdirilib.

Açılış nitqi ilə çıxış edən Şabran Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov konfransın Qərbi Azərbaycan həqiqətlərinin təbliğində mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli çıxış edərək Qərbi Azərbaycana qayıdış ideyasının təməlinin hələ 1970-ci illərdə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu və bu gün Prezident İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirildiyini bildirib.

Natiq qeyd edib ki, son 200 ildə ilk dəfə olaraq Qərbi azərbaycanlıların öz yurdlarına qayıdışı üçün real zəmin yaranıb. Tarixi torpaqlarından qovularkən hüquqları pozulmuş Qərbi azərbaycanlıların problemləri ilə bağlı İcma tərəfindən beynəlxalq təşkilatlar məlumatlandırılır və onların qarşısında konkret istəklər irəli sürülür.

Konfrans, Qərbi Azərbaycanın tarixi və mədəni irsinin tanıdılması, eləcə də azərbaycanlıların tarixi-etnik torpaqlarından kütləvi deportasiyası ilə bağlı ölkədə həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi qiymətləndirilib. Tədbirdə Qərbi Azərbaycan İcmasının nümayəndələri, Milli Məclisin deputatları və başqaları çıxış ediblər.

# Qaçqınlıq, məcburi köçkünlük, didərginlik - bəşəri problem...

## 20 iyun Ümumdünya Qaçqınlar Günüdür

Son 30 illik tarix II Dünya müharibəsindən sonrakı mərhələdə çoxsaylı və qarışıq kataklizmlərin yaşandığı dövr kimi xarakterizə olunur. Terror hadisələri, müharibələr və etnik ayrı-seçkilik bəşəriyyətin qarşısında duran ən böyük problemlərdən birinə çevrilib. Bu hadisələr nəticəsində isə milyonlarla insan doğma torpaqlarından didərgin düşərək ya öz məmləkətlərində, ya da ki, qonşu və digər ölkələrdə qaçqınlıq həyatı yaşamağa məcbur olublar.

Artıq 25 ildir ki, iyunun 20-si Ümumdünya Qaçqınlar Günü kimi qeyd olunur. Belə ki, BMT-nin Baş Məclisi 2000-ci ildə bununla bağlı xüsusi qətnamə qəbul edib. Şübhəsiz, qətnamənin qəbulunda əsas məqsəd evindən, elindən didərgin düşən qaçqın və məcburi köçkünlərin acınacaqlı həyat şəraitini diqqətdə saxlamaq, onların sayının artmasının qarşısını almaq olub. Dünyada qaçqınların sayının artmasının qarşısını almaq üçün bu qətnamə qəbul edilsə də, təəssüf ki, hər il bu rəqəmlər kəskin surətdə artmaqdadır.



### BMT-dən yeni hesabat

2024-cü ildə dünyada beynəlxalq sərhədləri keçərək sığınacaq axtaran qaçqınların sayı 559 min nəfər azalaraq 36,8 milyona düşüb. Bu, 2011-ci ildən bəri ilk azalma olub. Bu barədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) hesabatında deyilir.

Azalmanın əsas səbəblərindən biri bəzi ölkələrə - Suriya, Cənubi Sudan, Əfqanıstan və Ukraynaya geri qayıdanların sayının artmasıdır. 2024-cü ildə 1,6 milyon nəfər doğma ölkəsinə geri dönüb ki, bu da 2002-ci ildən bəri ən yüksək göstəricidir.

Lakin eyni zamanda, daxili didərgin düşənlərin - yəni ölkə daxilində zorakılıqdan və münaqişələrdən qaçanların sayı artaraq 73,5 milyon nəfərə çatıb. Bu artım əsasən Sudan, Myanma, Haiti və Kolumbiyada baş verən münaqişələrlə əlaqələndirilir.

Ümumilikdə, 2024-cü ilin sonunda dünyada məcburi köçkünlərin sayı 123,2 milyon nəfərə çataraq rekord səviyyəyə yüksəlib. Bu, Yer kürəsində hər 67 nəfərdən birinin doğma evindən didərgin düşdüyünü göstərir.

BMT hesab edir ki, qaçqın problemini həll etməyin yeganə yolu münaqişələrin və hüquq pozuntularının kökündən aradan qaldırılmasıdır. Əks halda, dəstək çatışmazlığı daha geniş humanitar böhranlara yol aça bilər.

### Azərbaycan illərlə bu problemdən əziyyət çəkib...

Beynəlxalq Qaçqınlar Gününün hər il Azərbaycanda da qeyd edilməsi təsadüfi yox, zəruri hala çevrilmişdir. Çünki qaçqınlıq Azərbaycan xalqının taleyindən də yan keçməyib. Hələ XX əsrin əvvəllərindən başlayan erməni vəhşiliyi I Qarabağ müharibəsi dövründə daha da şiddətləndi. 1990-cı illərin əvvəlində Azərbaycan qaçqın və məcburi köçkün sayına görə, dünyada ön sıralarda qərarlaşmışdı. 1988-ci ildən başlayaraq ermənilərin əsassız şəkildə Azərbaycan torpaqlarına ərazi iddiaları etməsi Qarabağ müharibəsinin başlanması, Azərbaycan torpaqlarının işğalı ilə nəticələnmişdi. Həmin illərdə Azərbaycan daxilində hökm sürən xaos və anarxiya erməni silahlı qüvvələrinin yolunu açaraq torpaqlarımızın 20 faizinin işğalına gətib çıxardı. Mülki əhalinin müdafiəsinin yetərincə təşkil olunmaması minlərlə insanın itkin və əsir düşməsinə, habelə 700 mindən çox insanın məcburi surətdə el-obalarından sürgün olunmasına səbəb olmuşdu. Həmin ərəfələrdə Azərbaycanın üzləşdiyi digər problem də Qərbi



Azərbaycan torpaqlarında 250 mindən çox həmvətənimizin etnik mənsubiyyətə görə erməni rəhbərləri tərəfindən bu torpaqlardan zorla çıxarılması idi. 1990-cı ildə Fərqanə hadisələrində Orta Asiyadan 50 min nəfərə yaxın Axısxa türkü də Azərbaycana gəlib.

Dövlətimiz öz yurdlarından didərgin düşən soydaşlarımızın problemlərinin həllini hər zaman diqqət mərkəzində saxladı. Ölkəmizdə qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində dövlət siyasəti müəyyənləşdirildi. 2003-cü ildən isə bu strategiya Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Dövlət başçısının rəhbərliyi ilə qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması və digər problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirildi. Amma hər zaman atılan addımların, görülən tədbirlərin sonunda bu fikir unudulmadı - "Biz Qarabağda görüşəcəyik!".

### "Biz Qarabağda görüşəcəyik!"

2020-ci ilin Vətən müharibəsi bu arzumuzu reallığa çevirdi. 44 günlük Vətən müharibəsində və antiterror tədbirləri zamanı şanlı Zəfərə imza atan Azərbaycan dövləti ərazi bütövlüyünü, suverenliyini təmin etdi. Bu, respublikamız üçün yeni və mühüm mərhələ formalaşdırdı. Bu çağırışların ən ümdələrindən biri isə keçmiş qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtmasıdır. Səvindirici haldır ki, Vətən müharibəsində şanlı Zəfərə imza atan Azərbaycan "Böyük Qayıdış" hədəfinə doğru inamla irəliləməkdədir. İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"ın təmin olunması yeni strateji mərhələdə ölkəmizin mühüm prioritetindən biri kimi müəyyənləşdirilib. Ermənı işğalı dövründə illər boyu tikib qurduqları evlərini itirən insanlar doğma torpaqlarına - Şuşaya, Qubadlıya, Laçına, Füzuliyə, Zəngilana, Cəbrayıla və digər şəhər və kəndlərimizə qayıdacaqları günü səbirsizliklə gözləyirdilər. Dövlətimiz, Prezidentimiz də onlara daim ümid verdi. Müzəffər Ordumuzun Zəfəri sayəsində artıq doğma torpaqlara geri dönüş reallığa çevrilir.

*Yeganə BAYRAMOVA*

---

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti üzrə hazırlanmışdır**

# 10 236 227 nəfər olduq!

## Uğurlu demoqrafik siyasətin müsbət nəticəsi...

*Yeganə BAYRAMOVA*

Azərbaycan iqtisadi artım tempinə görə regionun lider dövlətlərindən biridir. Respublikamızda ardıcıl həyata keçirilən və əhalinin sosial rifahının yaxşılaşdırılmasına yönəlmiş dövlət proqramları demoqrafiya və əhalinin inkişafına müsbət təsirini göstərməkdədir.

Demoqrafik siyasət-dövlət orqanları və digər sosial institutlar vasitəsilə əhalinin artımının nizama salınması sahəsində məqsədyönlü fəaliyyətə əsaslanan, əhalinin say və struktur dinamikasını sabit saxlamağa və ya dəyişdirməyə xidmət edən siyasətdir. Əhalinin doğum sayı, nikah, boşanma, yaş strukturu və onun ölüm miqdarına təsir edən demoqrafik siyasət geniş mənada ya əhalinin artması ilə eyniləşdirilir, ya da onun tərkib hissələrindən biri kimi nəzərdən keçirilir. O, sosial və iqtisadi siyasətlə bağlı olsa da, özünəməxsus xüsusiyyətlərə də malikdir.

Məlumdur ki, hər bir ölkənin inkişafında həlledici rol məhz insan potensialı ilə bağlıdır. Bu mənada əhalinin siyahıyaalınması nəticəsində əldə edilmiş məlumatlar informasiya cəmiyyətinin qiymətli resursudur. Demoqrafik siyasətin düzgün qurulması isə əhalinin siyahıyaalınması prosesinin nəticələrindən çox asılıdır. Ölkənin sosial-iqtisadi vəziyyəti əhali artımında mühüm rol oynayır.

**Dünyada əhalinin sayı artacaq...**

BMT-nin proqnozlarına görə, bir sıra Avropa ölkələrində əhalinin ümumi sayının azalmasına baxmayaraq, dünyada əhalinin ümumi sayı 2025-ci ildə artacaq və 8 milyard nəfərdən çox olacaq. Məlumdur ki, əhalinin nəzarət olmadan artımı ilə mübarizə aparan ölkələr üçün hələ bunun universal həlli mövcud deyil, lakin bir sıra regionların təcrübəsi göstərir ki, bu problem həllolunandır. Bunun üçün hər bir ölkənin spesifik xüsusiyyətlərini nəzərə alan uzunmüddətli kompleks proqramların həyata keçirilməsi vacibdir. Bir daha qeyd etmək lazımdır ki, demoqrafik problemlər iqtisadi, sosial, siyasi, ekoloji və başqa problemlərlə sıx bağlıdır.

Zaman keçdikcə dünya əhalisinin ümumi sayında artımın olmasına baxmayaraq, artımın səviyyəsi ayrı-ayrı ölkələrdə bir-birindən ciddi fərqlənir. Ölkələrdə əhalinin artım tempinə yerli mədəniyyət, həyat tərzi, sosial rifah səviyyəsi, ekoloji vəziyyət, səhiyyənin inkişafı, insanların sağlamlıq durumu, miqrasiya axınları, siyasi-hərbi proseslər kimi amillər təsir göstərir. Ümumiyyətlə, adətən ölkələr çalışırlar ki, onlarda əhalinin artım tempi dünya əhalisinin, eləcə də, ətrafdakı ölkələrin sakinlərinin artım sürətindən geri qalmasın. Əhalinin normal artımı, yəni ümumi sayda və yaş qrupları arasında münasib balansın qorunub saxlanması milli təhlükəsizlik əhəmiyyəti daşıyan bir məsələdir. Bu baxımdan, Azərbaycanda kifayət qədər müsbət mənzərə mövcuddur.

**Əhalinin sayı 0,1 faiz artıb**

Dövlət Statistika Komitəsi (DSK) ölkəmizdə doğum, ölüm, nikah və boşanma sayı ilə bağlı son rəqəmlərin hesabatını təqdim edib. Komitədən verilən məlumata görə, ölkə əhalisinin sayı ilin əvvəlindən 11 min 338



nəfər və ya 0,1 faiz artaraq 2025-ci il may ayının 1-i vəziyyətinə 10 236 227 nəfərə çatıb.

**Ölüm göstəricisi azalıb**

Dövlət Statistika Komitəsinin aylıq hesabatında həmçinin ölkəmizdə qeydə alınan ölüm hallarının sayı açıqlanıb. Belə ki, bu ilin yanvar-aprel aylarında ölkədə 20 min 535 ölüm halı qeydə alınıb və 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 6,2-dən 6,1-ə düşüb.

**Nikahlar çoxalıb**

Komitənin aylıq hesabatında Azərbaycanda qeydə alınan nikah və boşanmaların da sayı açıqlanıb. Bildirilib ki, cari ilin ilk dörd ayı ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 14953 nikah və 6784 boşanma halları qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 4,1-dən 4,4-ə qədər artmış, boşanmaların sayı isə 2,1-dən 2-yə düşüb.

**1000 əkiz, 42 üçəm doğulub**

Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-aprel aylarında 31462 doğulan körpə qeydə alınıb. Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-aprel aylarında 31462 doğulan körpə qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 10-dan 9,4-ə düşüb.

# Münaqişə dərinləşir...

## Qarşılıqlı hücumlar davam edir



İsrail-İran qarşıdurması davam etməkdədir. Demək olar ki, beynəlxalq ictimaiyyətin bütün diqqəti bu münaqişəyə yönəlib. Yeddinci gündür ki, hər iki tərəf bir-birinin strateji cəhətdən önəmli olan hərbi, təhlükəsizlik və enerji obyektlərinə dron və raket zərbələri endirirlər. Hər iki tərəfdə həlak olanların və yaralanların sayı artmaqdadır. Verilən bəyanatlardan isə anlaşılır ki, tərəflər hücumları dayandırmaq niyyətində deyillər.



**Daha 3 helikopter...**

İsrail Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatlarına görə, iyunun 18-də İsrail Hərbi Hava Qüvvələrinə məxsus 60 döyüş təyyarəsi Tehran ərazisində 20-dən çox hərbi obyektə, xüsusilə də nüvə silahı layihəsinin silah istehsalı obyektlərinə, sentrifuqa istehsalı obyektlərinə və tədqiqat və inkişaf obyektlərinə, o cümlədən ballistik raket istehsalı obyektlərinə hücumlar həyata keçirib. İsrail Müdafiə Nazirliyinin məlumatına görə, bu qurğular nüvə silahı yaratmaq məqsədilə uranın zənginləşdirilməsinin miqyasını və sürətini genişləndirmək üçün nəzərdə tutulmuşdu. Bununla yanaşı, İsrail Hərbi Hava Qüvvələri İranın Kirmanşah şəhərindəki bazada daha 3 "AH-1" hərbi helikopterini məhv edib. İsrail müdafiə naziri İsrael Katz "X" sosial şəbəkəsində Tehrandakı strateji və hökumət hədəflərinə zərbələri gücləndirmək əmri verdiyini qeyd edib - "İsrailin Baş naziri Benyamin Netanyahu və mən İsrail Müdafiə Qüvvələrinə İrandakı strateji hədəflərə və Tehrandakı hökumət obyektlərinə hücumların intensivliyini artırmağı tapşırmışıq. Məqsədimiz İsrail dövlətinə qarşı təhdidləri aradan qaldırmaq və İran hökumətini sarsıtmaqdır", - deyə Katz bildirib.

**Təl-Əvivə növbəti hücum...**

İranın "Tasnim" informasiya agentliyinin məlumatına görə, iyunun 19-da İran səhər saatlarında İsrail Müdafiə Qüvvələrinin (IDF) kiberkomandanlıq qərargahına və kəşfiyyat mərkəzinə hücum edib. Qeyd olunub ki, bu mərkəzlərdə minlərlə hərbçi, rəqəmsal idarəetmə sistemləri və s. yerləşir. Eyni zamanda İran İsrailin Be'er Sabaa şəhərində İsrail Ordusunun Rabitə və Kəşfiyyat Mərkəzi Komandanlığı və İsrailin İnformasiya Texnologiyaları Mərkəzinə raket zərbəsi endirib. "Tasnim" informasiya agentliyi, həmçinin xəbər verib ki, İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) İsrailə hücum zamanı ilk dəfə ikimərhələli ortamənzilli "Sacjil" ballistik raketindən istifadə edib.

**Tam qələbə arzusu...**

ABŞ-ın yüksək səviyyəli rəsmilərinin məlumatına görə, Vaşinqton İrana mümkün zərbə endirməyə hazırlaşır. "Bloomberg" qeyd edir ki, potensial hücum iyunun 21-22-də həyata keçirilə bilər, lakin planların dəyişməsi ehtimalı var. "ABC News" müəyyən mənbələrə istinadən məlumat verib ki, ABŞ İsrailin İrana qarşı hərbi əməliyyatlarına qoşularsa, İranın Fordodakı uranın yeraltı zənginləşdirilməsi obyektinə çox güclü zərbələr endirə bilər. Agentliyin məlumatına görə qeyd olunur ki, Prezident Donald Tramp İranın Fordo nüvə obyektini sıradan çıxarmaq fikrilə razılaşıb. Eyni zamanda vurğulanır ki, ABŞ-da 90 metr dərinlikdə yerləşən Fordo nüvə obyektini məhv edə biləcək ağır bomba var. Bundan başqa, müxtəlif diplomatik mənbələrdə yayılan məlumata görə, ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) rəhbəri, general Maykl Kurilla İranla bağlı hərbi variantları müzakirə etmək üçün Ağ Evdə Trampla görüşüb. Tramp jurnalistlərlə görüşündə bəyan edib ki, o, İranın nüvə silahı əldə etməməsi üçün axıra qədər mübarizə aparacaq: "Mən döyüşmək istəmirəm, amma döyüşmək və İranın nüvə silahı əldə etməsi arasında seçim etməliyiksə, etməli olduğumuzu edəcəyik. Biz atəşkəs axtarmırıq. Biz tam qələbə istəyirik, yəni İran nüvə silahına sahib olmamalıdır," - deyə Tramp vurğulayıb.

**Saziş bağlanacaqmı?**

Tramp, həmçinin jurnalistlərə açıqlamasında qeyd edib ki, o, ABŞ ilə İran arasında nüvə proqramı ilə bağlı sazişin bağlanacağını güman edir. "İran onlar üçün yaxşı saziş imzalamağa çox yaxın idi. Mümkündür ki, bu hələ də baş verə bilər. Güman edirəm", - o qeyd edib. Tramp əlavə edib ki, İran hökumətinin nümayəndələri Ağ Ev də danışıqlar üçün ABŞ-a gəlməyə hazırdırlar.

**Qutteresdən çağırış**

BMT Baş katibi Antoniu Qutteres İsrail və İran arasında davam edən gərginliyin artmasından dərin narahatlıq keçirir. "Report"-un ABŞ bürosu xəbər verir ki, BMT Baş katibi öz bəyanatında İsraili və İranı gərginliyi azaltmağa və atəşkəsə doğru addımlar atmağa çağırıb. Qutteres, həmçinin münaqişənin beynəlxalq miqyasda daha da genişlənməsinin qarşısının alınması istiqamətində addımların atılmasının zəruriliyini vurğulayıb - "Əlavə hərbi müdaxilələr təkcə birbaşa iştirak edən tərəflər üçün deyil, bütün region və beynəlxalq sülh və təhlükəsizlik üçün böyük fəsadlara səbəb ola bilər". Baş katib dinc əhaliyə qarşı törədilmiş fəlakətli insan itkilərini, xəsarətləri, yaşayış evlərinə və mülki infrastruktura vurulan ziyanı qəti şəkildə pisləyib - o, qeyd edib ki, diplomatiya İranın nüvə proqramı və regional təhlükəsizlik məsələləri ilə bağlı narahatlıqların həlli üçün yeganə yoldur.

*Yunis ABDULLAYEV*

# Dünyanın taleyini həll etmək üçün 6 dəqiqə...

## NATO son 20 ilin ən qısa sammitini keçirməyə hazırlaşır

Dünyada baş verən kataklizmlər böyük narahatlıqlar yaradır. Artıq bütün dünya çıxış yollarının axtarışındadır - bu və ya digər şəkildə müzakirələr yolu ilə məsələlərin gələcək inkişaf axarının müəyyənləşdirilməsinə çalışılır. Dünyanın aparıcı hərbi strukturlarından sayılan NATO yenidən toplantı keçirəcək. Alyansın növbəti sammiti 24-25 iyun tarixlərində Haaqada keçiriləcək. Hollandiya hökumətinin məlumatına görə, NATO sammiti ölkədə indiyə qədər keçirilən ən böyük tədbir olacaq. Dövlət başçıları, xarici işlər nazirləri, müdafiə nazirləri və mətbuat nümayəndələri də daxil olmaqla 6000-ə qədər qonağın iştirakı gözlənilir.

Maraq doğuran məqamlardan biri isə sammitin indidən NATO tarixinə düşməsidir. Belə ki, sammitdə dövlət başçılarının iş proqramı cəmi bir plenar iclasdan ibarət olacaq və bu sessiya 3,5 saat davam edəcək. NATO-nun rəsmi saytında dərc olunmuş sammit proqramına əsasən iş müzakirəsi ümumilikdə 210 dəqiqə çəkəcək. Açılış və bağlanış çıxışları, habelə yekun bəyannamənin imzalanması üçün tələb olunan 15-20 dəqiqə çıxıldıqdan sonra, alyansa üzv olan 32 ölkənin liderlərinə çıxış üçün təxminən altı dəqiqəlik vaxt ayrılır. Bu da yalnız o halda mümkündür ki, adətən NATO sammitlərində çıxış vaxtına limit tətbiq edilməyən ABŞ prezidenti də çıxışını həmin müddətdə başa vursun.

### 1 səhifəlik kommünike...

"The Times" yazır ki, NATO sammiti mümkün qədər qısa olacaq və bir əsas mövzuya - üzv ölkələrin müdafiə xərclərinin artırılmasına yönəldiləcək. Nəşrin məlumatına görə, görüşün formatı ABŞ prezidentinin proqramına uyğun adaptasiya edilib. Sammit kommünikesi isə bir A4 səhifəsindən çox olmayacaq - cəmi beş paraqrafdan ibarət olacaq. Müqayisə üçün bildirək ki, ötən il Vaşinqtonda keçirilən sammitin yekun bəyannaməsi 44 bənd və beş mindən çox sözdən ibarət olmuşdu. Sammitin proqramına əsasən, ABŞ prezidenti NATO-nun Baş katibi Mark Rutte ilə ənənəvi birgə mətbuat konfransı keçirməyəcək.

### 2032-ci ilə qədər 2,5 dəfə...

Sammitdə müzakirəsi maraqla gözlənilən məsələlərdən biri hərbi xərclərin artırılmasıdır. Belə ki, plenar müzakirədən sonra sammit iştirakçıları 2032-ci ilə qədər hərbi xərclərin məcburi şəkildə 2,5 dəfə - yəni ÜDM-in iki faizindən beş faizinə qədər artırılması ilə bağlı qərar qəbul etməlidirlər. Bu addım elan edilmiş "Rusiyadan gələn ehtimal olunan təhlükə"yə qarşı müdafiə məqsədilə əsaslandırılır. Sammitin birinci günü - 24 iyun tarixində isə NATO ölkələrinin liderləri və onların həyat yoldaşları Niderland kral ailəsinin adından verilən rəsmi qəbulda iştirak edəcəklər. Brüsseldə sammitləri uzun illər işıqlandıran jurnalistlər bildirirlər ki, Haaqa sammitinin proqramı son 20 ildəki bütün planlı NATO sammitləri arasında ən yığcamıdır.



### Avropanın məqsədi...

Avropa Parlamentinin üzvləri tədbirdən öncə müzakirə olunan məsələlərlə bağlı fikirlərini bölüşüblər. Xarici KİV-in məlumatına görə, estoniyalı Avropa Parlamentinin deputatı Yaak Madisson hərbi xərclərə ayrılacaq vəsaitin faiz dərəcəsindən çox xərclənmə səmərəliliyinin təmininə diqqət yönəldib. NATO-nun Haaqa sammitinin ilk növbədə müdafiə xərclərinin artırılmasına həsr olunacağına vurğu edən Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas deyib ki, son 70 ildə Avropanın ümumi bazarının, güclü iqtisadiyyatının və sarsılmaz ruhunun qurulmasına nail olduq. "Amma bizi birləşdirən və birləşdirməyə davam edən əsas meyar bizim məqsədimizdir ki, vətəndaşlarımızın təhlükəsizliyini qoruyaq. Bu, hər birimizin - həm NATO-nun, həm də ABŞ-ın paylaşdığı məqsəddir", - deyən Kallas Rusiyanı sülhə 360 dərəcə təhlükə adlandırıb. O bildirib ki, Rusiyanın NATO və Aİ-yə qarşı heç bir şansı yoxdur: "Lakin biz birlikdə olmalıyıq. NATO liderləri görüşəndə alyansda birliyi qorumaq müdafiə xərclərini artırmaq qədər prioritet olacaq".

### Ukrayna ümid edir, ABŞ isə yayınır...

"The Times" isə Ukrayna prezident administrasiyasındakı mənbəyə istinadən yazır ki, Haaqada keçiriləcək sammitə Ukrayna prezidenti Vladimir Zelenski də dəvət olunub - lakin bununla bağlı qərar zirvə görüşü ərəfəsində veriləcək. Nəşr bildirir ki, sammitin müzakirəsində Rusiya yenə də "birbaşa təhdid" kimi göstəriləcək - lakin Ukraynanın alyansa üzvlük üçün "dönməz" yolun olması ilə bağlı əvvəlki bəyanatlar bu dəfə təkrarlanmayacaq. Xatırladaq ki, Ukraynanın sammitə dəvətini alyansın baş katibi Mark Rutte də təsdiqləyib. Lakin ABŞ prezidenti Donald Trampın Ukraynadakı müharibənin həllinə marağının getdikcə azalması fonunda bəzi Ukrayna rəsmiləri, medianın məlumatına görə, prezident Zelenskinin NATO sammitinə səfərinin məqsədəuyğunluğuna şübhə ilə yanaşır.

Ukrayna tərəfi isə bunun əksinə sammitdən hərbi blokla münasibətlərdə real irəliləyiş gözlədiyini gizlətmir. Bu barədə Ukrayna Prezidentinin Ofisinin rəhbəri Andrey Yermak öz "Teleqram" kanalında Vladimir Zelenski ilə NATO-nun Baş katibi Mark Rutte arasında görüşdən sonra yazıb. "Haaqa sammiti ərəfəsində biz Ukraynanın mövqelərini və gözləntilərini koordinasiya edirik. Tərəfdaşlar bilməlidirlər: indi əsas məsələ söz deyil, qərardır. Biz Ukrayna-NATO münasibətlərində real irəliləyişi




əks etdirəcək mənalı bəyannamə gözləyirik", - Yermak yazıb. O, həmçinin qeyd edib ki, Zelenski Ukrayna Silahlı Qüvvələrinin ehtiyac duyduğu hava hücumundan müdafiə sistemləri və raketləri haqda danışıb.

### NATO-da ixtisarlar

Bu arada NATO-nun Baş katibi Mark Rütten alyansdakı iki bölmənin ləğvini və onlarla vəzifənin ixtisarını planlaşdırdığı də məlum olub. "Politico" nəşri bu barədə alyansdakı mənbələrinə istinadla məlumat yayıb. Mark Rutte son zamanlar keçirdiyi daxili islaslarda NATO-da struktur islahatlarının aparılacağını, o cümlədən alyansın iki beynəlxalq bölməsinin - mətbuat xidməti kimi fəaliyyət göstərən ictimai diplomatiya və kadrlar şöbələrinin ixtisar olunacağını bəyan edib. Onların funksiyaları digər şöbələr arasında bölüşdürüləcək, rəhbərliyi isə vəzifədən azad olunacaq. Nəşrin yazdığına görə, ilk olaraq qısamüddətli (altı aylıq) müqavilə ilə işləyən gənc "müvəqqəti" işçilər ixtisara məruz qalacaq. Qeyd edək ki, mənzil-qərargahı Brüsseldə yerləşən Şimali Atlantika Alyansında 4 minədək işçi çalışır.

**P.İSMAYILOV**

# QƏRBİ AZƏRBAYCANDA İLK MİLLİ MƏTBUAT ORQANI: "LƏK-LƏK"

əvvəli ötən sayımızda

Cabbar Əsgərzadənin redaktorluğu və Mirməhəmməd Mirfətullayevin naşirliyi ilə çıxan "Lək-lək"in ilk nömrəsinin işıq üzü görməsi xəbəri İrəvan quberniyasında böyük əks-səda verdi, nəşrin sorağı bütün Cənubi Qafqaza yayıldı. "Lək-lək"in nəşrini ilk alqışlayanlardan biri Məmmədəli Sidqi olmuşdur. O, Bakıda yaşamasına baxmayaraq, jurnalın ən fəal oxucularından biri olub. Həyata vəsiqə alan "Lək-lək"in nəşrinə qədər İrəvanda ana dilində qəzetçilik ənənəsi olmasa da, amma çox yetkin yazıçılıq, publisistika ənənəsi var idi. Məşədi İsmayıl Hacı Kazımzadə, Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov, Mirzə Əlixan Şəmsül Hükəma, Abbas Razi Məmmədzadə, Hacı Seyid Rza Əmirzadə, Abbas Razi Məmmədzadə, Cabbar Əsgərzadə, Mirabbas Mirbağırov, Əli Məhzun Rəhimov, Məmmədəli Nasir, Məhəmməd Axundov, Əkbər Əkbərov, Mirzə Cabbar Məmmədzadə, Əkbər Rizayev və başqaları İrəvanda Azərbaycan jurnalistikası və publisistikasının görkəmli nümayəndələri idi. Onların jurnalistik və publisistik fəaliyyəti nəinki İrəvanda, o cümlədən Cənubi Qafqazda, Şərqdə və müxtəlif ölkələrdə böyük şöhrət tapmışdı.

"Lək-lək"in ilk nömrəsinin işıq üzü görməsi İrəvan ziyalıları və oxucular tərəfindən böyük sevinclə qarşılanmışdı. Jurnalın ilk nömrəsinin son səhifəsində "İdarədən" başlıqlı bir qeyd dərc olunub. Həmin qeyddə göstərilir ki, "bu nömrə üçün hürufat başqa bir kitaba işləndiyindən naşi kifayət verməyib, mündəricatın azlığına səbəb oldu. Bu barədə oxucularımızdan üzr istəyirik?!". Jurnalın ilk nömrəsinin cəmi 60 nüsxə ilə işıq üzü görməsi həm də onun maddi-texniki çətinlikləri ilə bağlı idi. Bu barədə jurnalın müdiri Cabbar Əsgərzadənin 2 mart 1914-cü ildə Məmmədəli Sidqiyə ünvanladığı məktubunda da məlumata rast gəlinir: "Əfəndim, hələ ki, "Lək-lək"imiz qanad bağlayıb o cür zülmün elçi quşlarına. Hər halda işıqlı qaralarınızla üzü ağ olmağı təmənna edir. Müzayiqənizi əsirgəyib də necə ki, vədələr vermisdiniz kömək ediniz.

Bir də bu dəfəlik mürəttil və mətbəə cəhətdən görülən bir çox nöqsanları güzəşt ediniz. Hamınıza bir "Lək-lək" Əmircana uçdu". Həm də bu fikirlərdən aydın olur ki, Cabbar Əsgərzadə "Lək-lək"in ilk nömrəsini Bakı nəşri-maarif cəmiyyətinin tabeliyində olan məktəbdə müəllimlik edən yaxın dostu Məmmədəli Sidqiyə göndərmişdir.

Hələ jurnalın nəşrindən iki ay əvvəl Cabbar Əsgərzadə "Lək-lək"in 15 gündən bir çıxacağı haqqında Məmmədəli Sidqiyə yazdığı məktubunda məlumat verir və bildirir ki, "əgər müvəffəq olsaq, sonralar həftədə bir dəfə çıxıb və müsəvvər olacaq". Jurnalın nömrələrini ardıcıl izlədikdə məlum olur ki, mətbəə problemi və mətbuat müfəttişliyinin əngəli səbəbindən fasilələrlə, iki ayda cəmi 3 nömrəsi çıxmışdı. Bununla əlaqədar "Lək-lək"in müxtəlif nömrələrində bu barədə oxuculara üzrxahlıq yazıları da verilmişdir. Jurnalın üzləşdiyi problemlər aradan qaldırıldıqdan sonra 4-cü nömrəsindən etibarən nəzərdə tutulduğu kimi həftədə bir dəfə nəşr edilmişdi. "Lək-lək"in nəşri İrəvanda Azərbaycan ictimai-siyasi fikir tarixində ciddi bir hadisə olmaqla yanaşı, eyni zamanda ədəbi-mədəni mühitin inkişafında da bir dönüş nöqtəsi oldu. Cabbar Əsgərzadə başda olmaqla dövrün ən yaxşı ədəbi qüvvələri - Əli Məhzun Rəhimov, Məmmədəli Nasir, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar və başqaları "Lək-lək" jurnalının ətrafına toplanmışdı. İrəvanlı molla nəsrəddinçilər digər molla nəsrəddinçilərlə çiyin-çiyinə verib öz fəaliyyətləri ilə jurnalın mövzu dairəsini və ideya-bədii səciyyəsini inkişaf etdirmiş, xeyli zənginləşdirmişlər.

Jurnal İrəvanda "Lyus" mətbəəsində nəşr edilirdi. "Lək-lək" də "Molla Nəsrəddin" kimi səkkiz səhifəlikdir. Lakin "Molla Nəsrəddin"də olan rəngli şəkillər onda yoxdur, yalnız birinci səhifəsinin başı şəkillidir. Yalnız ilk səhifəsində səhrada quru sünbüllə yanaşı duran Leylək şəkli verilmişdir ki, hər dəfə də bu təsvir təkrar edilmişdir. Jurnalın 3-cü nömrəsində Orta Asiyanın Mərv şəhərində cəhalətpərəstlər tərəfindən öldürülmüş maarifçi Yusif Heydərzadənin şəklindən başqa heç bir şəkilə rast gəlinmir. Hər nömrəsinin başında "Türk dilində həftəlik məzhəkəli məcmuədir"


№ 6. 12 го Мая 1914 года.

Цена 7 коп. Лекъ-Лекъ

Адресъ: Эривань, редакція журнала «ЛЕКЪ-ЛЕКЪ»

М. Миръ-фатуллаеву телефонъ №117

sözləri yazılırdı. Hər nömrəsinin qiyməti 7 qəpik idi. Jurnalda verilən elanlardan başqa, bütün materialların hamısı satirikdir. Cəmi beş ay sürən ömrü müddətində "Molla Nəsrəddin" platformasına, onun mübarizəsinə sadiq qalan "Lək-lək" çox aydın bir yol tutmuşdur. O hələ ilk nömrəsində öz yolunu müəyyən edərək yazırdı: "...Məsləkimizin əvvəli budur ki, biz "Molla Nəsrəddin" kimi hər kəsin eyibini və iradını açıq söyləyib, onun kimi sadəcə yazıb, ana dili tərəfdarı olmayıb, bəlkə "Şəlalə" kimi lütlərin cibini töküşdürüb ən qiymətli soğatlar çıxardacayıq!

Xanla, bəylə, molla ilə, müqəddəslə, yol kəsənlə, qumarbazla, çaxır içənlərlə heç işimiz olmayacaq...

Müqəddəslərimizin zahiri qiyafələrini yaxşı gördüyümüz kimi yaxşı yazacayıq, daha nə işimiz doşab içindən siçan çıxardaq və mürəbbə deyib hamının ağzını şirin edək.

... Qaldı xanlar, bəylər, ağalar... bunları da allah özü hörmətli yaradıbdır. Borcumuzdur, hörmət edək. Onlarda nə qədər hümmərsizlik, rəhmsizlik, cinayətsizlik görsək gözümüz kor, qulağımız kar olacaq. Danışmaq istəsək dilimiz lal olacaq.

Qaldı yol kəsən, dam dələn, adam öldürənlərimizə bunların hörmətləri necə ki, xana, bəyə və mollaya, mömünə vacibdi. Biz də elə...

Və qaldı maarif məsələsi, qızların oxuması, hicabın atılması biz bunlara pasu deyib, özümüzə küfrdən nicat öyrədəcəyik".

Jurnalın birinci nömrəsində "Baş məqalə" adı altında istehza ilə yazılmış bu məqalə jurnalın tutduğu yolu çox aydın işıqlandırır. Buradan göründüyü kimi "Lək-lək" "Molla Nəsrəddin" yolu ilə getməyi özünə məqsəd təyin etmiş; mövhumata, cəhalətə, qadın əsarətinə, nadanlığa qarşı çıxdığı kimi, mürtəce qüvvələrə qarşı mübarizə aparmağı da özünün əsas qayəsi seçmiş, maarifi, məktəbi, qadın azadlığını təbliğ etmişdir. "Lək-lək" elə ilk nömrəsində oxucularının milli şüurunun inkişafına, qabaqcıl ideyaların təbliğinə əngəl törədən cəhalətpərəst qüvvələrə qarşı qaldırılmış zəhmli bir yumruğa çevrildi. İrəvan quberniyasında mütərəqqi ideyaların carçısı və tribunası olan "Lək-lək" elm, maarif və mədəniyyətin, incəsənətin, ədəbiyyatın inkişafına, yeni tipli məktəblərin açılması, maarifçiliyin inkişafında qabaqcıl təcrübənin təbliği, təlim-tərbiyə üsullarının yaxşılaşdırılması və pedaqoji prinsiplərə əsaslanmasının zəruriliyinə aid məqalələr dərc edir və bu məsələləri öz səhifələrində geniş işıqlandırırdı. Jurnalda ticarətə və İrəvanda keçirilən ictimai-mədəni tədbirlərə dair elanlar, kiçik təmsillər, "Molla Nəsrəddin" janrlarında felyetonlar, şeirlər, müsahibə və sorğular verilmişdir. Jurnal özünün işinə dair elanları əsasən birinci səhifədə çap edirdi. "Lək-lək"in bütün nömrələrində bir elan həmişə təkrar edilmişdir. "Məsləkimizə müvafiq və millətimizə mənfəəti olan hər cür təhrirat üçün məcmuəmizin səhifələri açıqdır. İmzasız yazılar dərc olunmadığı kimi, markasız göndərilən məktublar da qəbul olunmaz. Yazılar açıq Türk dilində olmalıdır" (61). "Lək-lək" qısa zaman ərzində oxucular arasında böyük şöhrət qazana bilmişdi. Jurnal ziyalılar üçün böyük bir ədəbi məktəb, mübarizə tribunası olmuşdu. "Lək-lək" həyata vəsiqə alan gündən İrəvanda Azərbaycan həyatının ən müxtəlif sahələri haqqında ardıcıl, məqsədyönlü yazılar dərc etmişdir. Onun səhifələrində dərc olunan yazıları diqqətlə nəzərdən keçirdikdə ilk saylarında yalnız İrəvandan və Naxçıvandan gələn yazılar verilmişdisə, sonralar Gəncə, Bakı, Şamaxı, Tiflis, Cənubi Azərbaycandan da redaksiyaya daxil olan yazılar dərc edilmişdi. Qısa zaman ərzində "Lək-lək"in mübarizə sədası, üsyankar səsi Cənubi Qafqazı aşaraq onun yayılma arealını daha da genişləndirmiş Orta Asiya və Türkiyəyə də gedib çatmışdır. Bu baxımdan tədqiqatçı Zahid Əkbərovun "Lək-lək" jurnalının xalq qarşısında xidmətinə verdiyi dəyər olduqca təqdirəlayiqdir. O yazır: "Lək-lək" nəşr olunduğu müddətdə Azərbaycan ictimai-siyasi və ədəbi fikrinin inkişafına müəyyən kömək göstərmiş, tərəqqi və demokratik ideyalarına xidmət etmişdir. O anlaşıqlı dili və demokratik məzmunu sayəsində Zaqafqaziyada, umumən Qafqazda olan azərbaycanlılar içərisində çox yayılmış nəşrlərdən biri olmuşdur". "Lək-lək"in səhifələrində İstanbulda "Şəhbal" məcmuəsinin, Daşkənddə "Sədayi-Türküstan" qəzetinin abunə şərtləri ilə bağlı elanların təkrar-təkrar verilməsi də bunun əyani sübutudur. Eyni zamanda həmin mətbuat orqanları da İrəvan ziyalıları arasında yayılmış və maraqla oxunmuşdu. "Lək-lək"in daha geniş arealda yayılmasında Salman Mümtaz, Seyid Hüseyn və başqa görkəmli ziyalılarımızın da fəaliyyəti təqdirəlayiqdir. Jurnalda İrəvan ziyalıları ilə birlikdə molla nəsrəddinçilər sırasında fəxri yer tutmuş Məmməd Səid Ordubadi də yaxından iştirak etmişdir. O, həmin dövrdə sürgündə olmasına baxmayaraq, jurnalla əməkdaşlıq etmiş, felyeton və məqalələr göndərmişdir. Onun "Lək-lək"in 12 may 1914-cü il tarixli 6-cı nömrəsində "Hərdəmxəyal" imzası ilə verilmiş şeirində xalqın ağır vəziyyəti təsvir edilmişdir. M.S.Ordubadinin jurnalda "Hərdəmxəyal" imzası və "Ədəbiyyat" başlığı adı ilə verilmiş

*Hissim dağılır gərdişi*
*dövranı görəndə,*
*Dünyadakı nadan olan*
*insanı görəndə.*

beyti ilə başlayan şeiri forması etibarı ilə Füzulini, ruhu etibarı ilə Sabiri xatırladır.

davamı növbəti sayımızda



***Cəlal Allahverdiyev***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Lirik nəfəsli, şair qəlbli insan...



## Cahangir Cahangirovun doğum günüdür

*Yeganə BAYRAMOVA*

Onun yaradıcılığında ötən əsr musiqimizin simasını bir çox cəhətdən müəyyənləşdirmək üçün kifayət qədər zəngin material var. Bəstəkarın qələmə aldığı operalar, süitalar, üverturalar, poemalar, konsertlər, fuqalar, prelüdlər, pyeslər, kantatalar, oratoriyalar, odalar, marşlar, mahnılar, rəqslər, kinofilmlərə yazdığı musiqilər buna parlaq sübutdur. Söhbət görkəmli bəstəkar, Azərbaycan bəstəkarlıq məktəbinin təşəkkülü və inkişafında misilsiz xidmətləri olmuş Cahangir Cahangirovdan gedir.

Bu gün mərhum bəstəkarın anadan olmasından 104 il ötür. O, 1921-ci il iyunun 20-də Balaxanıda anadan olub. C.Cahangirov mahnı, kantata, instrumental pyes, opera kimi müxtəlif janrlarda eyni çoşğu ilə, ilham və həvəslə yazıb yaradıb. Sənətkarın musiqisi öz rəngarəngliyi, parlaqlığı və emosionallığı ilə qəlbləri fəth edib. Cahangir Cahangirovun yaradıcılığı təkcə respublikamızda deyil, onun hüdudlarından çox-çox uzaqlarda da maraq doğurub, bəyənilib və zamanında dövlət tərəfindən layiqincə qiymətləndirilib.

Görkəmli bəstəkarın yaradıcılıq yolu Azərbaycan musiqisinin böyük bir tarixi mərhələsini əhatə edir. Milli musiqi yaradıcılığının bir çox janrının inkişafında onun xidmətləri əvəzedilməzdir. Milli xor mədəniyyətimizin təşəkkülündə dahi Üzeyir Hacıbəyovdan sonra Cahangir Cahangirovun adı çəkilir. Ü.Hacıbəyovla şəxsən tanış olan Cahangir Cahangirov dahi bəstəkarla bağlı xatirələrini “Unudulmaz xatirələr” və “Üzeyir Hacıbəyov haqqında xatirələrim” məqalələrində qələmə almışdı. Məqalələrdən aydın olur ki, dahi Üzeyir bəylə gənc Cahangirin ilk tanışlığı 1937-ci il ilə təsadüf edir. Azərbaycan Dövlət Filarmoniyasının nəzdində xor kollektivi təşkil etmək üçün filarmoniyaya gələn Üzeyir bəy tələbələri dinləyir. Həmin vaxt teatr texnikumunda təhsil alan gənc Cahangir komissiyanın sədri Üzeyir Hacıbəyov tərəfindən bəyənilir və o, xor kollektivinə qəbul edilir. Bir müddət xorda oxuyan Cahangir xatirələrinin birində yazıb:

“Bir gün məşqdən sonra Üzeyir bəy məni yanına çağırdı və dedi: “Cahangir, yoldaşlarından bir neçəsi mənə deyiblər ki, sən bəzən musiqi parçaları, mahnılar qoşursan. Bir əyləş, çal görüm. Eşitmək istəyirəm.” Özünü itirən, əlləri əsməyə başlayan Cahangirin həyəcanını sakitləşdirən Üzeyir bəy onun çaldığı əsərlərə qulaq asaraq onları bəyənir və ona Qara Qarayevə müraciət etməyi məsləhət görür. “Beləliklə, mənim bəstəkarlıq sənətinə ilk dəfə qədəm qoymağım məhz Ü.Hacıbəyovun adı ilə bağlıdır”.

Ümumiyyətlə, Cahangir Cahangirov Üzeyir bəyin atalıq qayğısını hər zaman hiss etdiyini vurğulayırdı. Hətta xatirələrinin birində qeyd edir ki, müharibə illərində yaradıcı ziyalılara geyim, pal-paltar, ayaqqabı verirdilər. 1944-cü ildə Bəstəkarlar İttifaqına yenicə qəbul olunmuş gənc Cahangirə bir şey düşmədiyini bilən Üzeyir bəy öz adına yazılmış əşyanı ayaqqabı ilə əvəz edib Cahangirə verilməsini tapşırır. “Amma geyməyə ürəyim gəlmirdi. O, Üzeyir bəyin əvəzsiz yadigarı kimiydi. İllər keçib, ancaq mən unudulmaz müəllimimin hədiyyəsini - bir cüt ayaqqabını heç cür yaddan çıxarmıram”.

C.Cahangirovun yaradıcılığı çoxşaxəlidir. O, “Azad” və “Xanəndənin taleyi” operalarının, “Füzuli”, “Nəsimi”, “Aşıq Alı” kantatalarının, Sabir, Hüseyn Cavidə həsr olunmuş oratoriyaların, xalq mahnılarının xor üçün işləmələrinin, orijinal xor əsərlərinin, mahnıların, simfonik əsərlərin, kinofilmlərə və teatr tamaşalarına musiqilərin müəllifidir. Bəstəkarın ölməz şair Füzuliyə həsr etdiyi “Füzuli” kantatası xüsusən böyük şöhrət qazanıb. Müəllif Şərqin misilsiz şairinin parlaq obrazını təsirli musiqi dili ilə əks etdirə bilmişdi.

C.Cahangirovun yaradıcılığının bir şaxəsini də onun gözəl lirik mahnıları təşkil edir. Bəstəkar müxtəlif irihəcmli əsərlərə müraciət etməklə yanaşı, mahnı janrına da daim üstünlük verib və gözəl nəğmələr bəstələyib.

Cahangir Cahangirov ictimai musiqi xadimi kimi geniş fəaliyyət göstərib. O, Azərbaycan Bəstəkarlar İttifaqının, onun İdarə Heyətinin üzvü, habelə “Xor musiqisi” bölməsinin rəhbəri olub. O, həmçinin müxtəlif illərdə Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs ansamblının bədii rəhbəri, Azərbaycan Dövlət Televiziya və Radiosu xorunun bədii rəhbəri, Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri kimi məsuliyyətli vəzifələrdə çalışıb. Gözəl bəstəkar, lirik nəfəsli, şair qəlbli insan olan C.Cahangirovun musiqisi daim qəlbləri fəth edəcək!..

# 46 illik ömür...



## Fazil Salayevin anım günüdür



Komediya aktyorlarımız sırasında tamaşaçını necə güldürməyi bilən, məhz insanların istəyi ilə komik situasiyalarda necə hərəkət etməyin min bir yolunu qət edənlər çox olub. Həmin aktyorlardan Fazil Salayevin adını xüsusilə qeyd etməliyik. Xüsusi koloritə malik olan Fazil Salayev sadəcə səhnədə deyil, eyni zamanda həyatda da çox şən, deyib-gülməyi sevən biri idi. Bu gün 46 illik ömründə böyük yaradıcılıq yolu qət edən, xalqımızın sevimli aktyoru Fazil Salayevin anım günüdür. Deyilənə görə, Fazil Salayevin kumiri məşhur italyan aktyoru Toto idi. Çox güman ki, Salayevin bu seçimində Toto ilə zahiri oxşarlıqlarının olması da böyük rol oynamışdı. Teatr İnstitutunu bitirən F.Salayev Akademik Milli Dram Teatrına işə qəbul olunduqdan sonra bu teatrın səhnəsində müxtəlif obrazlar oynayır. Ancaq bir müddət sonra dram teatrından gedir və Musiqili Komediya Teatrında işə düzəlir.

Fazil Salayev kinoda ilk rolunu 32 yaşında oynayıb. Rejissor Həsən Seyidbəyli onu “Möcüzələr adası” filmində epizodik rola dəvət edir. Cəmi bir il sonra isə F.Salayev rejissor Ağarza Quliyevin ekranlaşdırdığı “Ulduz” filmində müxbir rolunu oynayır. Ardınca “Alma almaya bənzər”, “Bir cənub şəhərində”, “Dərviş Parisi partladır” kimi filmlərdə yaddaqalan obrazlar yaradır.

1966-cı ildə Həsən Seyidbəyli “Sən niyə susursan?” filmində F. Salayevə kiçik bir rol tapşırır və o, bu rolun da öhdəsindən lazımınca gəlir. 1969-cu ildə Şamil Mahmudbəyovun çəkdiyi “Şərikli çörək” filmindəki Qırçı Məhəmməd rolu isə onun aktyor kimi məşhurlaşmasında da xeyli rol oynayır.

Aktyorun oynadığı sonuncu film onun həyatının son aylarına təsadüf edir. Rejissor Cahangir Mehdiyev Moskva Kinematoqrafiya İnstitutunda oxuyarkən kurs işi üçün “Araşdırın” filminə Fazil Salayevi çəkir.

Həyat yoldaşı Fəridə Salayeva 2009-cu ildə verdiyi müsahibədə Fazil Salayevin son günlərini belə xatırlayırdı:

“Ölümündən bir qədər əvvəl veriliş efirə getmişdi. Orada Həsən Seyidbəyli onun haqqında danışmışdı. Fazil öləndən sonra verilişi yenidən efirə verdilər. Söz-söhbət gəzirdi ki, guya Fazil bizimlə yola getmirmiş. Təsəllim qızlarım olub. Axı onlar rəhmətliyin ən qiymətli yadigarlarıdır. Üç qız zarafat deyil. Fazil rəhmətə gedəndə hələ hamısı evdəydi. Sonra başım qarışdı onları köçürməyə. Daha sonra nəvələrim dünyaya gəldi. Fazil evin vur-tut bircə uşağı olub. Özü də varlı-hallı bir kişinin. Üstəlik, üç qardaşın evində yeganə uşağı idi. Rəhmətlik qaynatamın artistlikdən xoşu gəlməzdi. Elə sözün doğrusu, mənim də. Teatrda tamaşalarda oynayırdı, tək-tük halda gedib baxırdım. Piano çalmağı, oxumağı aləm idi. Hədsiz istedadlı idi. Bakının yarısı dostları idi. Mənsə ciddi, qısqanc... Bir az da cavanlıq idi, indiki ağlım hardan idi. Necə deyərlər, çox fərqimiz vardı...”.

Xüsusilə “Mozalan” satirik jurnalından yaddaşlara həkk olan istedadlı aktyor Fazil Salayev qısa ömür yaşasa da, oynadığı rolları, gözəl mimikası və yumor hissi ilə xalqımızın yaddaşında əbədi qaldı. İllər keçsə də, onun yaratdığı rollara və filmlərə maraq itməyib, bu gün də sevilə-sevilə baxılır.

*Yeganə BAYRAMOVA*



## “Araz-Naxçıvan”dan yeni transfer



“Araz-Naxçıvan” Bruno Franko ilə müqavilə imzalayıb. Klubdan AZƏRTAC-a verilən məlumata görə, braziliyalı sol cinah müdafiəçisi ilə anlaşma 1 illikdir. 27 yaşlı futbolçu ötən mövsüm Bolqarıstanın “Lokomotiv” (Sofiya) komandasında çıxış edib. “Lokomotiv”ə qədər o, “Spartak” (Pleven), eləcə də Braziliyada “Matonense”, “Rio Branko”, “Batatais”, “Moqi Mirim” klublarının formasını geyinib. Qeyd edək ki, buna qədər baş məşqçi Elmar Baxşıyevla yanaşı, İssof Paro, Ömər Buludov, Kristian Avram, Tərlan Əhmədli, Ürfan Abbasov, Slavik Alxasov, Qara Qarayev, Bəxtiyar Həsənalızadə, Ülvü İsgəndərov, Vanderson Melo, Ramon Maçado və Nuno Rodriguesla başa çatan müqaviləni yeniləyən, Bar Cohen, Çance Simakala Ba-Muakanı transfer edən “Araz-Naxçıvan” Vadim Abdullayev, Sezar Meza Kolli, Karlos Jatoba, Bernardo Dias və Miço Kuzmanoviçlə yollarını ayırıb.

## Ukrayna yığması ilə səfər oyununun yeri açıqlanıb

Azərbaycan milli komandasının 2026-cı il dünya çempionatının seçmə mərhələsində Ukrayna yığması ilə keçirəcəyi səfər oyununun yeri müəyyənləşib. AFFA-dan AZƏRTAC-a verilən məlumata görə, D qrupunun IV turu çərçivəsində oktyabrın 13-də Polşanın Vrotslav şəhərində təşkil olunacaq görüş “Tarçinski Arena”da oynanılacaq. Matç Bakı vaxtı ilə saat 22:45-də başlanacaq.

Qeyd edək ki, Azərbaycan millisi



Ukrayna yığması ilə ev oyununu sentyabrın 9-da Tofiq Bəhramov adına Respublika Stadionunda keçirəcək.

## Avarçəkmə üzrə açıq Bakı birinciliyi keçirilib

Bakı Şəhər Gənclər və İdman İdarəsi, Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) birgə təşkilatçılığı ilə açıq Bakı birinciliyi keçirilib. AKAF-dan AZƏRTAC-a verilən məlumata görə, yeniyetmə və gənc avarçəkənlər arasında gerçəkləşən yarışda Bakı və Mingəçevirdən olan 100-ə yaxın idmançı iştirak edib. Reqlamentə əsasən, avarçəkənlər kayak növündə həm 1, həm də 2



nəfərlik qayıqda, kanoe və akademik avarçəkmədə isə 1 nəfərlik qayıqda 500 metr məsafədə mübarizə aparıblar. Maraqlı mübarizə şəraitində keçən birinciliyin qalibləri diplom və medallarla mükafatlandırılıblar.

Qeyd edək ki, açıq Bakı birinciliyi və bu qəbildən olan ölkədaxili yarışların təşkilində əsas məqsədlərdən biri idmançıların hazırlıq səviyyəsini yoxlamaq, eyni zamanda onlar arasından seçilən avarçəkənləri gənclərdən ibarət yığma komandanın heyətinə cəlb etməkdir.

## “Fənərbağça” “Real Madrid”in futbolçusu ilə razılıq əldə edib




İspaniyanın “Real Madrid” komandasının futbolçusu Lukas Vaskes karyerasını Türkiyədə davam etdirəcək. AZƏRTAC xarici mətbuata istinadən xəbər verir ki, 33 yaşlı müdafiəçi “Fənərbağça” ilə razılıq əldə edib.

O, klublararası dünya çempionatından sonra La Liqa təmsilçisini tərk edəcək. Türkiyə klubu oyunçunu transfer haqqı ödəmədən heyətinə qatacaq.

Qeyd edək ki, Lukas Vaskes 18 ildir Madrid klubunun formasını geyinir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5006**
**Sifariş: 1270**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova